**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

Bu məruzə 2015-ci ilin ilkin məlumatlarını əks etdirir.

# SOSİAL, İQTİSADİ İNKİŞAF

12

**YANVAR-DEKABR**

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 12**
**19 yanvar 2016-cı il**

## 2015-Cİ İLDƏ ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2015-ci ildə ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 54,4 milyard manatlıq və ya 2014-cü illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Əlavə dəyərin 33,9 faizi sənayedə, 12,1 faizi tikintidə, 10,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,0 faizi informasiya və rabitə, 19,4 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,3 faizini təşkil etmişdir. Ümumi daxili məhsulun əhalinin hər nəfərinə düşən həcmi 5703,7 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 2015-ci ildə 26,2 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 2,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

Sənaye məhsulunun 61,9 faizi mədənçıxarma sektorunda, 29,9 faizi emal sektorunda, 7,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda məhsul istehsalı 2,0 faiz, o cümlədən əmtəəlik qaz hasilatı 5,5 faiz artmış, neft hasilatı isə 0,7 faiz azalmışdır.

Emal sektorunda qida məhsullarının istehsalı 2,9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 3,0 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 67,3 faiz, kağız və karton istehsalı 7,5 faiz, poliqrafiya məhsullarının istehsalı 86,7 faiz, kimya sənayesi məhsullarının istehsalı 43,2 faiz, tikinti materiallarının istehsalı 6,3 faiz, hazır metal məhsullarının istehsalı 54,1 faiz, kompyuter, elektron və optik məhsulların istehsalı 2,1 dəfə, elektrik avadanlıqlarının istehsalı 1,8 faiz, avtomobil, qoşqu

və yarımqoşquların istehsalı 4,6 faiz, mebel istehsalı 10,1 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 2,7 dəfə artmış, toxuculuq məhsullarının istehsalı 55,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 21,4 faiz, geyim istehsalı 44,2 faiz, içkilərin istehsalı isə 11,2 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,4 faiz azalmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 1,8 faiz artmışdır.

Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 8,4 faiz artmış, neft sektorunda isə ötən ilin səviyyəsində qalmışdır.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 yanvar 2016-cı il vəziyyətinə 317,5 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatında** bitkiçilik məhsullarının yığımı başa çatmışdır. 2015-ci ildə qarğıdalı da daxil olmaqla 2999,0 min ton taxıl, 839,8 min ton kartof, 1273,3 min ton tərəvəz, 35,0 min ton pambıq, 886,3 min ton meyvə və giləmeyvə, 484,5 min ton bostan məhsulları, 157,0 min ton üzüm, 186,1 min ton şəkər çuğunduru, 18,9 min ton dən üçün günəbaxan, 3,5 min ton tütün, 578,9 ton yaşıl çay yarpağı toplanmış, diri çəkidə 515,6 min ton ət, 1924,4 min ton süd, 1538,6 milyon ədəd yumurta və 17,0 min ton yun istehsal olunmuşdur. 2014-cü illə müqayisədə ət istehsalı 2,0 faiz, süd istehsalı 3,7 faiz, yun istehsalı 1,4 faiz artmış, yumurta istehsalı isə 1,5 faiz azalmışdır.

İlkin məlumatlara görə 2016-cı il yanvarın 1-i vəziyyətinə ölkə üzrə 2708,5 min baş iribuynuzlu mal-qara, o cümlədən 1303,1 min baş inək və camış, 8674,8 min baş qoyun və keçi mövcud olmuşdur. 2015-ci il yanvarın 1-nə nisbətən iribuynuzlu mal-qaranın sayı 11,0 min baş (0,4 faiz), o cümlədən inək və camışların sayı 3,9 min baş (0,3 faiz), qoyun və keçilərin sayı 29,4 min baş (0,3 faiz) artmışdır.

Bu dövrdə bitkiçilik məhsulları istehsalının 11,3 faiz, heyvandarlıq məhsulları istehsalının 2,5 faiz artması nəticəsində kənd təsərrüfatının ümumi məhsulu üzrə artım tempi əvvəlki illə müqayisədə 6,6 faiz təşkil etmişdir.

2016-cı ilin məhsulu üçün 1044,6 min hektar sahədə şum qaldırılmış, 927,4 min hektar sahəyə dən üçün taxıl, o cümlədən 583 min hektar sahəyə buğda, 344,4 min hektar sahəyə isə arpa səpilmişdir.

2015-ci ildə **əsas kapitala** 15957,0 milyon manat məbləğində vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 9880,6 milyon manatı və ya 61,9 faizi məhsul istehsalı obyektlərinin, 5046,7 milyon manatı (31,6 faizi) xidmət sahələri üzrə obyektlərin, 1029,7 milyon manatı (6,5 faizi) isə ümumi sahəsi 1927,2 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 8936,9 milyon manatını və ya 56,0 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 11722,9 milyon manatı və ya 73,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

**Nəqliyyat və anbar təsərrüfatı** sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən il ərzində 222,4 milyon ton yük və 1891,9 milyon sərnişin daşınmışdır. 2014-cü illə müqayisədə yük daşınması 0,2 faiz, sərnişin daşınması isə 3,5 faiz artmışdır. Yüklərin 3,0 faizi dəniz, 7,7 faizi dəmir yolu, 61,9 faizi avtomobil, 27,4 faizi isə boru kəməri nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin 88,1 faizi avtomobil, 11,7 faizi metro, qalanları isə digər nəqliyyat növləri ilə daşınmışdır. Hesabat dövründə nəqliyyat sektorunda 161,6 milyon ton qeyri-neft yükləri daşınmışdır ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

**İnformasiya və rabitə** müəssisələri hüquqi və fiziki şəxslərə 1642,8 milyon manatlıq xidmətlər göstərmişdir ki, onların da 72,6 faizi əhali sektoruna aid olmuşdur. 2014-cü illə müqayisədə informasiya və rabitə xidmətlərinin həcmi 6,8 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2015-ci ildə **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 25721,1 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 7462,8 milyon manatlıq pullu xidmət göstərilmişdir. Əvvəlki illə müqayisədə əmtəə dövriyyəsi 10,9 faiz, pullu xidmətlərin həcmi isə 5,1 faiz artmış, ticarət şəbəkəsində 12871,2

milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 12849,9 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən 2015-ci ilin yanvar-noyabr aylarında ölkənin **xarici ticarət** dövriyyəsinin həcmi 18815,4 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 10619,2 milyon dollarını və ya 56,4 faizini ölkədən ixrac olunmuş məhsullar, 8196,2 milyon dollarını (43,6 faizini) isə idxal məhsulları təşkil etmiş, ixracın idxalı üstələməsi nəticəsində 2423,0 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2014-cü ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin həcmi 4,1 faiz, o cümlədən ixrac 5,7 faiz azalmış, idxal isə 0,2 faiz artmışdır. Ticarət dövriyyəsinin 12,0 faizi MDB üzvü ölkələrinin, 47,3 faizi Avropa İttifaqı ölkələrinin, 40,7 faizi isə digər ölkələrin payına düşmüşdür.

İdxal olunmuş məhsulların həcminin 21,9 faizi MDB üzvü ölkələrinin, 31,2 faizi Avropa İttifaqı ölkələrinin, 46,9 faizi isə digər ölkələrin payına düşmüşdür.

İxrac edilmiş məhsulların 4,4 faizi MDB üzvü ölkələrinə, 59,7 faizi Avropa İttifaqı ölkələrinə, 35,9 faizi isə digər ölkələrə göndərilmişdir.

2015-ci ilin yanvar-noyabr aylarında qeyri-neft məhsullarının ixracı 2014-cü ilin eyni dövrünün göstəricisini 3,6 faiz üstələyərək 1461,7 milyon dollar təşkil etmişdir.

2015-ci ilin noyabr ayı ilə müqayisədə dekabr ayında ərzaq məhsullarının qiymətləri 4,5 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 7,1 faiz, əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri isə 1,9 faiz bahalaşmışdır. Ümumilikdə istehlak məhsullarının və xidmətlərin qiymətləri 4,4 faiz bahalaşmışdır.

2015-ci ildə əvvəlki ilə nisbətən ərzaq məhsullarının qiymətləri 6,1 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 3,8 faiz, əhaliyə göstərilən pullu xidmətlərin qiymətləri isə 1,2 faiz bahalaşmışdır. Ümumilikdə **istehlak məhsullarının və xidmətlərin qiymətləri** 4,0 faiz bahalaşmışdır.

Yanvar-noyabr aylarında muzdla işləyənlərin **orta aylıq nominal əmək haqqı** 2014-cü ilin eyni dövrü ilə müqayisədə 4,5 faiz artaraq 462,0 manat təşkil etmişdir.

2014-cü illə müqayisədə **əhalinin gəlirləri** nominal ifadədə 5,7 faiz artaraq 41,7 milyard manata çatmışdır. Gəlirlərin 72,1 faizi son istehlaka, 9,1 faizi vergilərin, sığorta və üzvlük haqlarının ödənilməsinə, 15,9 faizi əmanətlərin və kapitalın artırılmasına, 2,9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmişdir.

Maliyyə Nazirliyinin məlumatlarına əsasən 2015-ci ilin yanvar-noyabr aylarında **dövlət büdcəsinə** 15455,3 milyon manat vəsait daxil olmuş, büdcədən 15469,2 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 13,9 milyon manatlıq kəsir ümumi daxili məhsulun 0.03 faizi səviyyəsində olmuşdur. Büdcə xərclərinin 5,8 milyard manatı iqtisadiyyatın inkişafı və tənzimlənməsinin, 3,6 milyard manatı təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat sahələrinin, 6,1 milyard manatı isə digər sahələrin maliyyələşdirilməsinə yönəldilmişdir.

Mərkəzi Bankın məlumatlarına görə, 2015-ci il dekabr ayının 1-nə ölkənin bank sektorunun **kredit** portfeli milli valyuta ekvivalentində 18,7 milyard manat təşkil etmiş, onun 14,1 milyard manatı uzunmüddətli kreditlər olmuşdur. Kreditlərin həcmi 2014-cü il dekabr ayının 1-i ilə müqayisədə 3,3 faiz artmışdır. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 6,6 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2015-ci il dekabr ayının 1-nə 7,1 milyard manat təşkil etmişdir.

Dekabr ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta **məzənnəsi** 1,23 manata (ilin əvvəlindən 1,03 manata), 1 Avroya-1,34 manata (1,14), 100 Rusiya rubluna-1,76 manata (1,70) bərabər olmuşdur.

İlin əvvəlindən **əhalinin sayı** 103,8 min nəfər və ya 1,1 faiz artaraq 2015-ci il dekabr ayının 1-i vəziyyətinə 9696,8 min nəfərə çatmışdır.

Cədvəl 1

**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**

| Göstəricinin adı | 2015-ci ildə faktiki, milyon manat | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə | Məlumat üçün 2014-cü il 2013-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Ümumi daxili məhsul** | **54 352,1** | **101,1** | **102,8** |
| milyon ABŞ $ | 52 969,6 | - | - |
| o cümlədən: qeyri-neft ÜDM | 37 670,0 | 101,1 | 107,0 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **5 703,7** | **99,9** | **101,5** |
| ABŞ $ | 5 558,7 | - | - |
| **Sənaye məhsulu** | **26 156,9** | **102,4** | **99,3** |
| o cümlədən qeyri-neft sənayesi | 7 660,3 | 108,4 | 106,9 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər** | **15 957,0** | **88,9** | **98,3** |
| o cümlədən tikinti-quraşdırma işlərinə | 11 722,9 | 86,6 | 111,8 |
| **Kənd təsərrüfatı məhsulu** | **5 635,3** | **106,6** | **97,4** |
| o cümlədən: bitkiçilik | 2 761,1 | 111,3 | 91,7 |
| heyvandarlıq | 2 874,2 | 102,5 | 103,0 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **222,4** | **100,2** | **101,9** |
| o cümlədən qeyri-neft yüklərinin daşınması | 161,6 | 101,6 | 103,4 |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1 891,9** | **103,5** | **104,7** |
| **İnformasiya və rabitə xidmətləri** | **1 642,8** | **106,8** | **115,1** |
| **Pərakəndə ticarət dövriyyəsi** | **25 721,1** | **110,9** | **110,0** |
| **Əhaliyə göstərilən pullu xidmətlər** | **7 462,8** | **105,1** | **107,2** |
| **Dövlət büdcəsinin gəlirləri** | **15 455,3**[x)] | **90,0**[xx)] | **97,1**[xxx)] |
| **Dövlət büdcəsinin xərcləri** | **15 469,2**[x)] | **102,5**[xx)] | **94,3**[xxx)] |
| **Dövlət büdcəsinin kəsiri** | **13,9** | **-** | **-** |
| **Əhalinin gəlirləri** | **41 738,6** | **105,7** | **105,1** |
| **Əhalinin hər nəfərinə düşən gəlirlər, manat** | **4 380,1** | **104,5** | **103,8** |
| ABŞ $ | **4 268,7** | **-** | **-** |
| **Əhalinin banklardakı əmanətləri, 2015-ci il 01 dekabr vəziyyətinə** | **7 089,5** | **100,0** | **110,4** |

…ardı

| Göstəricinin adı | 2015-ci ildə faktiki, milyon manat | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə | Məlumat üçün 2014-cü il 2013-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Kredit qoyuluşları, 2015-ci il 01 dekabr vəziyyətinə** | **18 744,3** | **103,3** | **119,1** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 229,6 | 125,3 | 123,5 |
| **Orta aylıq əmək haqqı, manat** | **462,0[x]** | **104,5[xx]** | **105,4[xxx]** |
| ABŞ $ | 458,5[x] | - | - |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **104,0** | **101,4** |
| **Əhalinin sayı, min nəfər, 2015-ci il 01 dekabr vəziyyətinə** | **9 696,8** | **101,2** | **101,2** |
| Statistika məlumatı[1] | | | |
| **Xarici ticarət dövriyyəsi, milyon ABŞ $** | **23 575,6[x]** | **99,5[3]** | **95,0[4]** |
| o cümlədən: ixrac | 15 379,4[x] | 99,3[3] | 98,9[4] |
| idxal | 8 196,2[x] | 100,2[3] | 83,0[4] |
| Gömrük məlumatı[2] | | | |
| **Xarici ticarət dövriyyəsi, milyon ABŞ $** | **18 815,4[x]** | **95,9[3]** | **93,4[4]** |
| o cümlədən: ixrac | 10 619,2[x] | 94,3[3] | 98,0[4] |
| ondan qeyri-neft ixracı | 1 461,7[x] | 103,6[3] | 98,9[4] |
| idxal | 8 196,2[x] | 100,2[3] | 83,0[4] |

**Qeyd:**

[1] Ölkə sərhədini keçərək faktiki ixrac olunmuş, lakin hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməyən xam neft və təbii qazın həcmi və statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar daxil edilmişdir.

[2] İxrac edilmiş xam neft və təbii qazın hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilən həcminə dair məlumatlar daxil edilmişdir.

[3] 2015-ci ilin yanvar - noyabr ayları 2014-cü ilin yanvar - noyabr aylarına nisbətən, müqayisəli qiymətlərlə;

[4] 2014-cü ilin yanvar - noyabr ayları 2013-cü ilin yanvar -noyabr aylarına nisbətən, müqayisəli qiymətlərlə;

[x] 2015-ci ilin yanvar - noyabr ayları;

[xx] 2015-ci ilin yanvar - noyabr ayları 2014-cü ilin yanvar -noyabr aylarına nisbətən;

[xxx] 2014-cü ilin yanvar - noyabr ayları 2013-cü ilin yanvar - noyabr aylarına nisbətən.

## Ümumi Daxili Məhsul

İlkin məlumatlara görə 2015-ci ildə ölkədə istehsal edilmiş ümumi daxili məhsulun həcmi 2014-cü illə müqayisədə 1,1 faiz artaraq 54,4 milyard manat olmuşdur.

ÜDM-in hər nəfərə düşən həcmi 5703,7 manat, yaxud 5558,7 ABŞ dolları təşkil etmişdir.

Yola saldığımız ildə iqtisadiyyatın qeyri-neft sektorunda 37,7 milyard manatlıq əlavə dəyər istehsal olunmuş, onun ÜDM-də xüsusi çəkisi 69,3 faizədək yüksəlmişdir.

Bu dövrdə ümumi daxili məhsulun 33,93 faizi sənayedə, 12,14 faizi tikintidə, 10,00 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,23 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,40 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,71 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,99 faizi informasiya və rabitə sahələrində, 19,31 faizi isə digər sahələrdə istehsal edilmişdir.

Məhsula və idxala xalis vergilər ÜDM-in 8,29 faizini təşkil etmişdir.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | 2015 | 2014* | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Ümumi Daxili Məhsul** | **54352,1** | **59014,1** | **101,1** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 3385,3 | 3139,2 | 106,6 |
| Sənaye | 18440,0 | 24169,3 | 101,6 |
| o cümlədən: – mədənçıxarma sənayesi | 14352,3 | 20222,3 | 100,9 |
| – emal sənayesi | 2875,0 | 2777,7 | 107,7 |
| – elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1121,1 | 1078,2 | 99,6 |
| – su təchizatı, tullantıların təmizlənməsi və emalı | 91,6 | 91,1 | 101,8 |
| Tikinti | 6599,5 | 7454,4 | 86,6 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 5437,7 | 4652,0 | 110,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 2932,4 | 2655,9 | 98,3 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1475,7 | 1269,1 | 114,0 |
| İnformasiya və rabitə | 1083,6 | 1070,9 | 106,8 |
| Digər sahələr | 10492,9 | 10190,3 | 101,7 |
| **Məhsula və idxala xalis vergilər** | **4505,0** | **4413,0** | **103,6** |
| **ÜDM-in deflyatoru** | **91,1** | **98,7** | **x** |

Cədvəl 3

## Neft və qeyri-neft sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | 2015 | 2014* | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| **Ümumi Daxili Məhsul** | **54352,1** | **59014,1** | **101,1** |
| o cümlədən: | | | |
| – neft sektoru | 16682,1 | 22824,9 | 101,2 |
| – qeyri-neft sektoru | 37670,0 | 36189,2 | 101,1 |

*) 2014-cü ilin göstəriciləri ilin yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1




Qrafik 2

**ÜDM istehsalı və qeyri-neft sektorunun dinamikası,**
əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə



# Sənaye

2015-ci ildə sənayedə istehsal olunmuş məhsulların həcmi 2,4 faiz artaraq 26,2 milyard manat təşkil etmişdir. Sənayenin qeyri-neft sektorunda əvvəlki illə müqayisədə 8,4 faizlik artım əldə olunmuş, neft sektorunda isə istehsalın həcmi ötən ilin səviyyəsində qalmışdır. Sənaye məhsulunun 61,9 faizi mədənçıxarma, 29,9 faizi emal, 7,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 76,4 faiz olmuşdur. Ümumi istehsalın 87,1 faizi sənaye məhsulunun istehsalı, 12,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2014-cü il** | | |
| Yanvar | 99,8 | 96,0 |
| Fevral | 91,7 | 96,3 |
| Mart | 108,7 | 97,6 |
| Aprel | 99,5 | 98,0 |
| May | 104,3 | 97,9 |
| İyun | 93,3 | 97,6 |
| İyul | 106,2 | 98,3 |
| Avqust | 101,0 | 98,8 |
| Sentyabr | 90,6 | 99,4 |
| Oktyabr | 97,4 | 99,6 |
| Noyabr | 94,2 | 98,5 |
| Dekabr | 114,9 | 99,3 |
| **2015-ci il** | | |
| Yanvar | 101,7 | 101,4 |
| Fevral | 93,3 | 102,3 |
| Mart | 112,8 | 103,9 |
| Aprel | 95,9 | 103,7 |

…ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| May | 104,7 | 103,7 |
| İyun | 94,2 | 103,8 |
| İyul | 103,4 | 103,5 |
| Avqust | 93,2 | 102,3 |
| Sentyabr | 97,2 | 102,1 |
| Oktyabr | 99,6 | 102,2 |
| Noyabr | 102,4 | 103,0 |
| Dekabr | 100,0 | 102,4 |

İstehsal edilmiş sənaye məhsullarının böyük hissəsi istehlakçılara göndərilmiş, bununla yanaşı, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 yanvar 2016-cı il vəziyyətinə 317,5 milyon manatlıq hazır məhsul ehtiyatları olmuşdur. Ehtiyatların 67,3 faizi Bakı, 7,3 faizi Sumqayıt, 4,2 faizi Gəncə, 0,6 faizi Şirvan, 0,2 faizi Mingəçevir şəhərlərinin, qalan hissəsi isə digər rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 19,8 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın həcmi 16,2 milyard manat olmaqla 2014-cü ilin səviyyəsini 2,0 faiz üstələmişdir.

Sahənin əsas məhsulu olan xam neftin hasilatı 41,6 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 19,7 milyard kub metr təşkil etmişdir.

Cədvəl 5

## Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 41 689,0 | 99,2 | 315,7 |
| ondan əmtəəlik | 41 605,0 | 99,3 | 315,7 |
| Təbii qaz, milyon kub metr | 29 742,7 | 101,1 | 788,6 |
| ondan əmtəəlik | 19 720,5 | 105,5 | 788,6 |
| **Metal filizlərinin hasilatı** | | | |
| Dəmir filizi, min ton | 127,6 | 139,6 | 46,5 |
| Mis filizləri və konsentratları, ton | 989,8 | 126,2 | 57,3 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 2 367,2 | 112,1 | 67,3 |
| o cümlədən : qızıl | 2 229,3 | 119,1 | 43,4 |
| gümüş | 137,9 | 57,6 | 23,9 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| Tikinti qumu, min ton | 531,3 | 39,4 | 27,3 |
| İnşaat üçün əhəng daşı, min ton | 337,9 | 81,2 | - |
| Çınqıl, qırmadaş, xırda çay daşı, min ton | 678,1 | 46,3 | 198,7 |
| Duz, ton | 39 460,7 | 112,2 | 25,5 |
| ondan əmtəəlik | 4 742,6 | 91,8 | 25,5 |
| Bentonit, min ton | 56,2 | 68,6 | 47,4 |
| ondan əmtəəlik | 53,4 | 69,7 | 47,4 |
| Gips və anhidrit, ton | 6 022,1 | 2,3 | 790,5 |

Qrafik 3

## Neft və qaz hasilatının aylar üzrə dinamikası




## Emal sənayesi

Emal sənayesində yanvar-dekabr aylarında 7,8 milyard manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 6

## Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2014-cü il** | | |
| Yanvar | 98,3 | 113,3 |
| Yanvar-fevral | 100,3 | 116,4 |
| Yanvar-mart | 100,8 | 110,2 |
| Yanvar-aprel | 95,9 | 104,2 |
| Yanvar-may | 93,3 | 101,3 |
| Yanvar-iyun | 95,2 | 101,7 |
| Yanvar-iyul | 97,5 | 103,3 |
| Yanvar-avqust | 99,6 | 106,0 |
| Yanvar-sentyabr | 101,5 | 108,0 |
| Yanvar-oktyabr | 102,1 | 108,2 |

...ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| Yanvar-noyabr | 102,0 | 108,2 |
| Yanvar-dekabr | 102,2 | 108,2 |
| **2015-ci il** | | |
| Yanvar | 88,7 | 92,4 |
| Yanvar-fevral | 90,2 | 87,5 |
| Yanvar-mart | 103,3 | 108,1 |
| Yanvar-aprel | 113,4 | 115,9 |
| Yanvar-may | 117,0 | 118,9 |
| Yanvar-iyun | 119,0 | 121,4 |
| Yanvar-iyul | 116,8 | 123,5 |
| Yanvar-avqust | 111,5 | 118,6 |
| Yanvar-sentyabr | 109,4 | 116,7 |
| Yanvar-oktyabr | 108,4 | 115,7 |
| Yanvar-noyabr | 106,5 | 113,4 |
| Yanvar-dekabr | 107,0 | 115,6 |

Qrafik 4

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 7

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2015-ci ildə istehsal edilmişdir, milyon manat | 2014-cü ilə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi*** | 7 827,9 | 107,0 |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 2 640,0 | 102,9 |
| içki istehsalı | 201,6 | 88,8 |
| tütün məmulatlarının istehsalı | 27,2 | 90,3 |
| toxuculuq sənayesi | 28,3 | 44,8 |
| geyim istehsalı | 56,9 | 55,8 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 12,6 | 103,0 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 11,1 | 167,3 |
| kağız və karton istehsalı | 29,6 | 107,5 |
| poliqrafiya məhsullarının istehsalı | 35,1 | 186,7 |
| neft məhsullarının istehsalı | 2 429,9 | 95,1 |
| kimya sənayesi | 288,2 | 143,2 |
| əczaçılıq məhsullarının istehsalı | 3,3 | 38,7 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 83,8 | 78,6 |
| tikinti materiallarının istehsalı | 433,7 | 106,3 |
| metallurgiya sənayesi | 228,5 | 96,0 |
| hazır metal məmulatlarının istehsalı | 120,6 | 154,1 |
| kompyuter, elektron və optik məhsulların istehsalı | 74,6 | 2,1 d. |
| elektrik avadanlıqlarının istehsalı | 101,7 | 101,8 |
| maşın və avadanlıqların istehsalı | 198,3 | 71,5 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 92,9 | 104,6 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 11,1 | 94,6 |
| mebellərin istehsalı | 45,4 | 110,1 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 8,9 | 2,0 d. |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 664,6 | 2,7 d. |

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

2014-cü illə müqayisədə qida məhsullarının istehsalında 2,9 faiz artım, içki istehsalında 11,2 faiz, tütün məmulatlarının istehsalında isə 9,7 faiz azalma müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından olan duru bitki yağlarının istehsalı 3,2 faiz artaraq 67,5 min ton, üzlü süd istehsalı 2,2 faiz artaraq 857,4 min ton, qaymaq və xama istehsalı 1,0 faiz artaraq 4,7 min ton, pivə istehsalı 16,7 faiz azalaraq 4,3 milyon dkl, alkoqolsuz içkilərin istehsalı 10,4 faiz azalaraq 24,5 milyon dkl təşkil etmişdir.

Cədvəl 8

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2014-cü il** | | | |
| Yanvar | 100,8 | 76,1 | 90,3 |
| Yanvar-fevral | 104,0 | 90,3 | 88,6 |
| Yanvar-mart | 102,5 | 91,0 | 99,1 |
| Yanvar-aprel | 103,2 | 92,1 | 111,6 |
| Yanvar-may | 102,1 | 95,5 | 136,8 |
| Yanvar-iyun | 102,4 | 97,3 | 160,3 |
| Yanvar-iyul | 103,1 | 99,6 | 171,9 |
| Yanvar-avqust | 102,4 | 104,9 | 175,0 |
| Yanvar-sentyabr | 102,3 | 109,2 | 185,3 |
| Yanvar-oktyabr | 101,9 | 110,0 | 2,0 d. |
| Yanvar-noyabr | 100,9 | 109,1 | 183,0 |
| Yanvar-dekabr | 101,4 | 108,1 | 166,6 |
| **2015-ci il** | | | |
| Yanvar | 90,4 | 108,0 | 148,9 |
| Yanvar-fevral | 92,4 | 101,5 | 110,9 |
| Yanvar-mart | 103,5 | 103,0 | 87,9 |
| Yanvar-aprel | 103,9 | 99,5 | 82,3 |
| Yanvar-may | 103,8 | 93,6 | 77,9 |
| Yanvar-iyun | 103,7 | 95,6 | 80,5 |
| Yanvar-iyul | 103,5 | 96,6 | 79,0 |
| Yanvar-avqust | 103,5 | 95,2 | 83,3 |
| Yanvar-sentyabr | 103,6 | 91,4 | 85,9 |
| Yanvar-oktyabr | 103,8 | 90,8 | 89,8 |
| Yanvar-noyabr | 103,6 | 89,9 | 90,5 |
| Yanvar-dekabr | 102,9 | 88,8 | 90,3 |

Qrafik 5

## Qida məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 9

## Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin istehsalı

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Ət (quş əti daxil olmaqla), min ton | 254,1 | 100,8 | - |
| Kolbasa məmulatları, ton | 2 105,9 | 114,2 | 3,1 |
| Üzlü süd, min ton | 857,4 | 102,2 | 0,1 |
| Qaymaq və xama, ton | 4 698,4 | 101,0 | - |
| Pendir və kəsmik, ton | 48 498,5 | 100,8 | 76,1 |
| Kərə yağı, ton | 23 740,6 | 102,6 | 62,5 |
| Cem və marmeladlar, ton | 34 664,0 | 99,1 | 453,4 |
| Duru bitki yağları, ton | 67 516,8 | 103,2 | 2 377,8 |
| Marqarin, ton | 24 924,7 | 85,1 | 231,1 |
| İnsanın qidalanması üçün yararlı olan duz, ton | 36 327,0 | 113,4 | 811,6 |
| Qənd və şəkər tozu, min ton | 330,3 | 80,6 | 16,1 |
| Çörək və çörək-bulka məmulatları (əmtəəlik), min ton | 754,8 | 101,2 | - |

…ardı

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **İçki məhsulları** | | | |
| Şampan şərabı, min dkl | 4,5 | 48,9 | 5,0 |
| Araq, min dkl | 679,7 | 101,8 | 64,5 |
| Brendi (konyak), min dkl | 4,7 | 3,3 | 28,7 |
| Üzüm şərabı, min dkl | 821,4 | 88,8 | 755,2 |
| ondan əmtəəlik | 821,4 | 93,0 | 755,2 |
| Pivə, min dkl | 4 276,3 | 83,3 | 426,3 |
| Likörlər, min dkl | 54,5 | 55,5 | 81,6 |
| Alkoqolsuz içkilər, min dkl | 24 518,3 | 89,6 | 1 298,3 |
| **Tütün məmulatları** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 1691,5 | 69,6 | - |
| Papiros və siqaretlər, milyon ədəd | 1 979,4 | 98,3 | 0,1 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 97,8 milyon manat həcmində məhsul istehsal edilmiş, 2014-cü illə müqayisədə dəri və dəridən məmulatlar, ayaqqabı istehsalında 3,0 faiz artım, geyim istehsalında 44,2 faiz, toxuculuq sənayesində isə 55,2 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 10

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2014-cü il** | | | |
| Yanvar | 122,3 | 139,8 | 29,7 |
| Yanvar-fevral | 109,1 | 109,5 | 35,1 |
| Yanvar-mart | 108,7 | 107,0 | 38,2 |
| Yanvar-aprel | 103,5 | 116,6 | 39,3 |
| Yanvar-may | 97,5 | 117,4 | 32,4 |
| Yanvar-iyun | 92,4 | 130,9 | 33,9 |
| Yanvar-iyul | 87,1 | 142,9 | 43,8 |
| Yanvar-avqust | 87,1 | 145,7 | 45,0 |
| Yanvar-sentyabr | 92,4 | 150,7 | 42,3 |
| Yanvar-oktyabr | 109,8 | 153,2 | 45,8 |
| Yanvar-noyabr | 106,7 | 165,0 | 49,2 |
| Yanvar-dekabr | 101,9 | 159,9 | 59,0 |
| **2015-ci il** | | | |
| Yanvar | 20,8 | 99,8 | 2,1 d. |
| Yanvar-fevral | 20,3 | 77,4 | 3,0 d. |
| Yanvar-mart | 28,9 | 116,9 | 2,4 d. |
| Yanvar-aprel | 30,3 | 100,1 | 2,4 d. |
| Yanvar-may | 32,2 | 92,8 | 2,6 d. |
| Yanvar-iyun | 30,4 | 79,7 | 2,4 d. |
| Yanvar-iyul | 29,2 | 71,9 | 2,1 d. |
| Yanvar-avqust | 30,6 | 71,3 | 188,6 |
| Yanvar-sentyabr | 32,4 | 63,3 | 174,1 |
| Yanvar-oktyabr | 37,2 | 60,2 | 152,5 |
| Yanvar-noyabr | 39,8 | 59,2 | 108,7 |
| Yanvar-dekabr | 44,8 | 55,8 | 103,0 |

Cədvəl 11

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq lifi, ton | 6 332,9 | 47,4 | 4 308,3 |
| Hazır pambıq parçalar, min kv.m | 9 596,0 | 11,5 d. | 449,5 |
| ondan əmtəəlik | 9 596,0 | 15,2 d. | 449,5 |
| Pambıq iplik, ton | 9 087,4 | 76,2 | 664,5 |
| ondan əmtəəlik | 6 930,3 | 60,6 | 664,5 |
| Pambıq yataq ağları, min ədəd | 222,5 | 54,9 | 0,8 |
| Xalça və xalça məmulatları, kv.m | 321,4 | 62,5 | 1 371,2 |
| **Geyim istehsalı** | | | |
| Üst trikotaj, min ədəd | 182,8 | 71,7 | 8,1 |
| Alt trikotaj, min ədəd | 235,0 | 75,1 | 40,4 |
| Corab, min cüt | 1 509,3 | 90,8 | 0,3 |
| İpəkdən hazırlanan şərflər, kaşnelər, duvaqlar və s., min ədəd | 87,6 | 42,1 | 45,8 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Dəri, min kv.m | 841,9 | 69,9 | 140,0 |
| Ayaqqabı üçün dəri, ton | 619,0 | 2,3 d. | - |
| Qoyun və ya quzu dərisindən hazırlanan dəri, ton | 894,2 | 107,3 | 9,9 |
| Üstü dəridən olan ayaqqabılar, min cüt | 67,0 | 95,4 | 22,9 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın həcmi 2429,9 milyon manat olmaqla 2014-cü ilin yanvar-dekabr ayları ilə müqayisədə 4,9 faiz azalmışdır. Neft məhsullarından ağ neftin istehsalı 2,9 faiz, avtomobil benzininin istehsalı 1,1 faiz, sürtkü yağlarının istehsalı 52,5 faiz, dizel yanacağının istehsalı 4,9 faiz azalmış, yanacaq mazutunun istehsalı isə 58,7 faiz artmışdır.

Cədvəl 12

**Neft məhsullarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 1 224,6 | 98,9 | 59,1 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 205,9 | 92,7 | 1,6 |
| Ağ neft, min ton | 688,6 | 97,1 | 45,5 |
| Dizel yanacağı, min ton | 2 803,7 | 95,1 | 69,3 |
| Yanacaq mazutu, min ton | 328,1 | 158,7 | 4,5 |
| Sürtkü yağları, min ton | 25,3 | 47,5 | 14,3 |
| Neft bitumu, min ton | 171,8 | 71,0 | 3,2 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 375,3 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-dekabr ayları ilə müqayisədə məhsulun həcmi kimya sənayesində 43,2 faiz artmış, rezin və plastik kütlə məmulatlarının istehsalında 21,4 faiz, əczaçılıq məhsullarının istehsalında isə 61,3 faiz azalmışdır.

Əsas kimya məhsullarından izopropil spirtinin istehsalı 15,9 faiz, arqonun istehsalı 64,1 faiz, lak-boya məmulatlarının istehsalı 43,9 faiz artmışdır. Rezin və plastmas məmulatlarından bərk polietilen boruların istehsalı 32,0 faiz, plastik borular, boruçuqlar və şlanqlar üçün fitinqlərin istehsalı 67,6 faiz, polietilen kisə və çantaların istehsalı 49,4 faiz azalmışdır.

Cədvəl 13

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2014-cü il** | | | |
| Yanvar | 126,0 | 40,5 | 56,2 |
| Yanvar-fevral | 115,5 | 56,0 | 56,0 |
| Yanvar-mart | 112,3 | 54,3 | 68,5 |
| Yanvar-aprel | 98,6 | 69,9 | 68,5 |
| Yanvar-may | 95,2 | 80,1 | 70,1 |
| Yanvar-iyun | 95,3 | 95,7 | 76,6 |
| Yanvar-iyul | 100,3 | 106,4 | 69,2 |
| Yanvar-avqust | 112,1 | 102,5 | 66,2 |
| Yanvar-sentyabr | 121,7 | 99,9 | 64,6 |
| Yanvar-oktyabr | 127,2 | 96,0 | 66,0 |
| Yanvar-noyabr | 128,3 | 93,1 | 65,2 |
| Yanvar-dekabr | 132,0 | 127,3 | 64,5 |
| **2015-ci il** | | | |
| Yanvar | 133,7 | 144,9 | 119,3 |
| Yanvar-fevral | 120,6 | 72,3 | 129,3 |
| Yanvar-mart | 157,9 | 85,6 | 128,7 |
| Yanvar-aprel | 184,2 | 68,7 | 117,3 |
| Yanvar-may | 2,0 d. | 72,1 | 108,2 |
| Yanvar-iyun | 2,2 d. | 74,4 | 104,5 |
| Yanvar-iyul | 2,2 d. | 62,0 | 95,3 |
| Yanvar-avqust | 2,1 d. | 59,9 | 88,9 |
| Yanvar-sentyabr | 197,2 | 55,0 | 82,8 |
| Yanvar-oktyabr | 187,0 | 55,0 | 77,0 |
| Yanvar-noyabr | 148,0 | 51,8 | 73,3 |
| Yanvar-dekabr | 143,2 | 38,7 | 78,6 |

Qrafik 6

**Kimya sənayesi məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 14

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Arqon, min kub m | 234,1 | 164,1 | 1,5 |
| Yod, ton | 246,7 | 93,8 | 9,1 |
| ondan əmtəəlik | 210,4 | 95,2 | 9,1 |
| Xlorid turşusu, min ton | 0,3 | 150,0 | - |
| Barium sulfat, min ton | 61,0 | 112,8 | 5,2 |
| Propilen, min ton | 56,4 | 99,8 | 4,2 |
| ondan əmtəəlik | 45,5 | 96,6 | 4,2 |
| Polietilen, min ton | 103,5 | 102,4 | 4,2 |
| Etilen, min ton | 106,7 | 102,6 | 0,05 |
| İzopropil spirti (mütləq), ton | 12 253,1 | 115,9 | 2 020,3 |
| Metanol (metil spirti), min ton | 153,3 | - | - |
| Lak-boya məmulatları, ton | 5 399,7 | 143,9 | 202,4 |
| Yuyucu maddələr, ton | 91,5 | 28,9 | 32,1 |

…ardı

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 12 404,4 | 68,0 | 399,7 |
| Liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqlar, ton | 832,2 | 81,1 | 248,1 |
| Rezin lövhələr, təbəqələr və zolaqlar, ton | 19,0 | 51,9 | 154,0 |
| Butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 4 321,8 | 78,0 | 5 840,0 |
| Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton | 159,2 | 32,4 | 40,0 |
| Polietilen kisə və çantalar, ton | 5 580,2 | 50,6 | 84,1 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat | 92,6 | 57,3 | 21,2 |
| Tərkibində əczaçılıq maddələri olan, pərakəndə satış üçün qablaşdırılan pambıq, tənzif və s., min manat | 30,0 | 26,5 | - |

**Tikinti materiallarının istehsalı** sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun həcmi 6,3 faiz artaraq 433,7 milyon manat təşkil etmişdir. Sementin istehsalı 2,4 faiz, tikinti əhənginin istehsalı 17,5 faiz, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərinin istehsalı 1,8 dəfə artmışdır.

Qrafik 7

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

**Tikinti materiallarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sement, min ton | 2 938,1 | 102,4 | 62,5 |
| Şüşə lifindən iplik, ton | 687,0 | 63,7 | - |
| Tikinti gipsi, min ton | 195,5 | 102,3 | 1,5 |
| ondan əmtəəlik | 129,4 | 114,5 | 1,5 |
| Tikinti əhəngi, min ton | 16,5 | 117,5 | - |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton | 128,5 | 182,3 | 10,0 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub m | 22,2 | 65,9 | 0,8 |
| Asfalt, min ton | 474,7 | 117,9 | - |
| Tikinti kərpici, min kub metr | 264,3 | 89,7 | 12,0 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 921,1 | 55,1 | - |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 11 769,8 | 2,1 d. | - |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində 2015-ci ilin yanvar-dekabr aylarında 349,1 milyon manatlıq məhsul istehsal olunmuş, istehsalın həcmi metallurgiya sənayesində 4,0 faiz azalmış, hazır metal məmulatlarının istehsalı sahəsində isə 54,1 faiz artmışdır. Yanvar-dekabr ayları ərzində sahə üzrə 223,0 min ton (11,1 faiz az) armatur, 29,9 min ton (16,8 faiz az) polad borular, 302,2 min ton (6,8 faiz az) polad tökmə, 53,3 min ton (5,8 faiz çox) emal edilməmiş alüminium ərintiləri istehsal edilmişdir.

Cədvəl 16

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2014-cü il** | | |
| Yanvar | 144,9 | 114,6 |
| Yanvar-fevral | 147,0 | 139,5 |
| Yanvar-mart | 117,5 | 103,6 |
| Yanvar-aprel | 98,0 | 113,8 |
| Yanvar-may | 89,9 | 118,2 |
| Yanvar-iyun | 85,2 | 107,0 |
| Yanvar-iyul | 85,5 | 114,4 |
| Yanvar-avqust | 90,8 | 112,5 |
| Yanvar-sentyabr | 96,0 | 108,8 |
| Yanvar-oktyabr | 99,8 | 111,4 |
| Yanvar-noyabr | 107,2 | 110,4 |
| Yanvar-dekabr | 111,0 | 106,2 |
| **2015-ci il** | | |
| Yanvar | 61,3 | 102,7 |
| Yanvar-fevral | 49,0 | 107,6 |
| Yanvar-mart | 82,0 | 108,0 |
| Yanvar-aprel | 103,3 | 176,9 |
| Yanvar-may | 114,4 | 190,6 |
| Yanvar-iyun | 121,9 | 196,6 |
| Yanvar-iyul | 107,8 | 140,7 |
| Yanvar-avqust | 106,0 | 153,7 |
| Yanvar-sentyabr | 105,1 | 162,0 |
| Yanvar-oktyabr | 102,1 | 155,7 |
| Yanvar-noyabr | 97,1 | 158,6 |
| Yanvar-dekabr | 96,0 | 154,1 |

Cədvəl 17

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Çuqun tökmə, ton | 1 150,4 | 76,5 | 111,8 |
| ondan əmtəəlik | 1 132,7 | 79,2 | 111,8 |
| Polad tökmə, min ton | 302,2 | 93,2 | 14,1 |
| Armatur, min ton | 223,2 | 88,7 | 12,1 |
| ondan əmtəəlik | 223,0 | 88,9 | 12,1 |
| Polad borular, ton | 29 852,5 | 83,2 | - |
| Emal edilməmiş alüminium ərintiləri, min ton | 53,3 | 105,8 | 0,2 |
| Alüminium çubuqlar, millər və profillər, ton | 279,1 | 77,7 | 100,5 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Qara metallardan qeyri-elektrik radiatorlar və onların hissələri, ton | 49,9 | 114,7 | - |
| Qara metallardan sair konstruksiyalar, ton | 5 732,5 | 82,6 | 1 919,5 |
| Metallardan qapı və pəncərələr, ədəd | 4 287 | 50,1 | - |
| Metalların üst təbəqəsinin emalı üzrə xidmətlər, min manat | 39 819,6 | 3,7 d. | - |
| Mayelər üçün çənlər, sisternlər, ton | 446,7 | 6,5 d. | 40,0 |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 3 605,6 | 32,1 | - |

**Kompyuter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində məhsul istehsalının həcmi 176,3 milyon manat olmuş, 2014-cü ilin yanvar-dekabr ayları ilə müqayisədə kompyuter və digər elektron avadanlıqların istehsalı 2,1 dəfə, elektrik avadanlıqlarının istehsalı isə 1,8 faiz artmışdır. İl ərzində əvvəlki illə müqayisədə güc transformatorlarının istehsalı 4,6 dəfə, 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqillərinin istehsalı 2,7 dəfə artmışdır. Bundan əlavə, 2015-ci ildə peyk antenlərinin istehsalına başlanmış, ötən il ərzində 2,5 min ədəd peyk anten istehsal edilmişdir.

Cədvəl 18

**Kompyuter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompyuter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2014-cü il** | | |
| Yanvar | 3,5 | 71,4 |
| Yanvar-fevral | 32,7 | 153,2 |
| Yanvar-mart | 73,7 | 158,4 |
| Yanvar-aprel | 84,9 | 98,4 |
| Yanvar-may | 91,1 | 87,2 |
| Yanvar-iyun | 73,3 | 130,2 |
| Yanvar-iyul | 74,0 | 117,1 |
| Yanvar-avqust | 75,6 | 120,8 |
| Yanvar-sentyabr | 72,9 | 127,0 |
| Yanvar-oktyabr | 75,1 | 120,3 |
| Yanvar-noyabr | 73,3 | 121,8 |
| Yanvar-dekabr | 74,2 | 112,1 |
| **2015-ci il** | | |
| Yanvar | 2,6 d. | 185,2 |
| Yanvar-fevral | 33,6 | 173,6 |
| Yanvar-mart | 79,2 | 150,5 |
| Yanvar-aprel | 57,0 | 172,1 |
| Yanvar-may | 63,5 | 191,2 |
| Yanvar-iyun | 2,0 d. | 2,0 d. |
| Yanvar-iyul | 192,0 | 138,7 |
| Yanvar-avqust | 175,1 | 129,4 |
| Yanvar-sentyabr | 171,9 | 120,8 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompyuter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| Yanvar-oktyabr | 198,6 | 111,7 |
| Yanvar-noyabr | 2,0 d. | 106,7 |
| Yanvar-dekabr | 2,1 d. | 101,8 |

Cədvəl 19

## Kompyuter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Peyk antenləri, ədəd | 2 480 | - | - |
| Güc transformatorları, ədəd | 756 | 4,6 d. | - |
| Maye və qazların məsrəfinin və ya səviyyəsinin ölçülməsi üçün cihazlar, ədəd | 97 395 | 168,9 | 50 |
| İdarəetmə və tənzimləmə elektrik və paylaşdırma qurğuları üçün 1000V-dan çox olmayan gərginlik üçün sair əsaslar (lövhələr, panellər), ədəd | 2 085 | 26,5 | 298 |
| 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, ton | 3 454,1 | 2,7 d. | 4,2 |
| Televizorlar, ədəd | 788 | 13,0 | 4 450 |
| Məişət soyuducuları, ədəd | 2 794 | 76,2 | 1 225 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 302,3 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki illə müqayisədə maşın və avadanlıqların istehsalı 28,5 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 5,4 faiz azalmış, avtomobil və qoşquların istehsalı isə 4,6 faiz artmışdır. İl ərzində 85,9 faiz az məişət kondisioneri, 24,5 faiz az traktor, 60,9 faiz az minik avtomobili istehsal edilmişdir. Bununla yanaşı, hesabat dövründə 385 ədəd və ya 35,6 faiz çox yük avtomobili istehsal edilmişdir.

Cədvəl 20

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2014-cü il** | | | |
| Yanvar | 196,3 | 19,0 | 3,5 d. |
| Yanvar-fevral | 126,8 | 3,3 d. | 3,2 d. |
| Yanvar-mart | 110,8 | 2,8 d. | 3,5 d. |
| Yanvar-aprel | 111,5 | 2,5 d. | 3,8 d. |
| Yanvar-may | 104,7 | 2,6 d. | 2,8 d. |
| Yanvar-iyun | 96,6 | 138,0 | 2,9 d. |
| Yanvar-iyul | 97,1 | 166,2 | 3,4 d. |
| Yanvar-avqust | 95,6 | 191,1 | 3,5 d. |
| Yanvar-sentyabr | 93,1 | 157,0 | 3,5 d. |
| Yanvar-oktyabr | 94,0 | 158,0 | 3,4 d. |
| Yanvar-noyabr | 89,9 | 148,7 | 3,3 d. |
| Yanvar-dekabr | 89,8 | 158,2 | 3,4 d. |
| **2015-ci il** | | | |
| Yanvar | 82,0 | 10,5 d. | 174,3 |
| Yanvar-fevral | 81,7 | 77,4 | 83,6 |
| Yanvar-mart | 86,7 | 100,6 | 86,0 |
| Yanvar-aprel | 67,0 | 85,9 | 69,4 |
| Yanvar-may | 73,3 | 73,8 | 73,7 |
| Yanvar-iyun | 74,8 | 72,9 | 97,9 |
| Yanvar-iyul | 75,0 | 74,7 | 98,1 |
| Yanvar-avqust | 71,9 | 76,0 | 98,9 |
| Yanvar-sentyabr | 67,7 | 86,9 | 98,7 |
| Yanvar-oktyabr | 70,4 | 98,8 | 98,9 |
| Yanvar-noyabr | 70,2 | 104,5 | 99,5 |
| Yanvar-dekabr | 71,5 | 104,6 | 94,6 |

Cədvəl 21

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Fəvvarə armaturu, ton | 142,6 | 96,5 | 129,3 |
| Ştanqlı quyu nasosları, ədəd | 4 694 | 83,0 | 446 |
| Elektrik ötürücüsü olan liftlər, skip qaldırıcıları və s., ədəd | 23 | 39,7 | 84 |
| Məişət kondisionerləri, ədəd | 180 | 14,1 | 2 241 |
| Odsöndürənlər, ədəd | 41 446 | 78,1 | - |
| Traktorlar, ədəd | 955 | 75,5 | 2 |
| Xüsusi təyinatlı kommunal maşınlar, ədəd | 668 | - | 92 |
| Yük avtomobilləri, ədəd | 385 | 135,6 | 2 |
| Minik avtomobilləri, ədəd | 728 | 39,1 | 209 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorları

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda il ərzində 1897,0 milyon manat həcmində məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, əvvəlki ilin yanvar-dekabr ayları ilə müqayisədə 0,4 faizlik azalma müşahidə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi 1,8 faiz artaraq 234,9 milyon manat təşkil etmişdir.

Cədvəl 22

## Elektrik enerjisi, qaz və buxar istehsalı bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2015-ci ildə istehsal edilmişdir, milyon manat | 2014-cü ilə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1 897,0 | 99,6 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 234,9 | 101,8 |

Cədvəl 23

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2015-ci ildə istehsal edilmişdir | Əvvəlki ilə nisbətən, faizlə | 01.01.2016-cı il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | | |
| Elektrik enerjisi, milyon kVt-saat | 22 900,5 | 99,3 | - |
| ondan əmtəəlik | 21 811,3 | 99,4 | - |
| su elektrik stansiyalarının istehsalı | 1 541,5 | 125,3 | - |
| istilik elektrik stansiyalarının istehsalı | 20 260,1 | 98,5 | - |
| küləklə işləyən stansiyaların istehsalı | 5,7 | 72,2 | - |
| günəş enerjisi ilə işləyən stansiyaların istehsalı | 4,0 | - | - |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, milyon kub metr | 254,4 | 96,6 | - |

2015-ci ilin yanvar-noyabr aylarında sənaye müəssisələrində çalışan muzdlu işçilərin sayı 182,1 min nəfər təşkil etmiş, onların 35,0 min nəfəri mədənçıxarma, 95,4 min nəfəri emal, 26,5 min nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 25,2 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrində çalışmışdır.

Qrafik 8

**Sənaye işçilərinin sayının fəaliyyət növləri üzrə bölgüsü,** yekuna nisbətən




Yanvar-noyabr aylarında sənaye müəssisələrində işləyənlərin orta aylıq əmək haqqı 12,3 faiz artaraq 797,0 manata çatmışdır. Əmək haqqının daha çox artımı mədənçıxarma sənayesində, zərgərlik məmulatlarının; avtomobil, qoşqu və yarımqoşquların istehsalı; maşın və avadanlıqların quraşdırılması və təmiri müəssisələrində müşahidə olunmuşdur. Qeyri-dövlət sektorunda işçilərin orta aylıq əmək haqqı 16,6 faiz artaraq 1004,2 manat təşkil etmişdir.

Cədvəl 24

## Sənayenin fəaliyyət növləri üzrə bir işçinin orta aylıq əmək haqqı, manat

| | 2015-ci ilin yanvar-noyabr aylarında | 2014-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye üzrə - cəmi** | **797,0** | **112,3** |
| **Mədənçıxarma sənayesi** | **2 079,1** | **121,2** |
| **Emal sənayesi** | **516,2** | **105,9** |
| o cümlədən: qida məhsullarının istehsalı | 367,8 | 100,1 |
| içki istehsalı | 496,8 | 102,3 |
| tütün məmulatlarının istehsalı | 382,8 | 106,3 |
| toxuculuq sənayesi | 278,3 | 100,9 |
| geyim istehsalı | 405,3 | 100,4 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 520,0 | 101,9 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 528,9 | 102,9 |
| kağız və karton istehsalı | 532,0 | 100,8 |
| poliqrafiya məhsullarının istehsalı | 412,5 | 100,0 |
| neft məhsullarının istehsalı | 820,1 | 106,2 |
| kimya sənayesi | 545,7 | 112,2 |
| əczaçılıq məhsullarının istehsalı | 369,8 | 102,2 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 492,2 | 100,1 |
| tikinti materiallarının istehsalı | 593,3 | 101,8 |
| metallurgiya sənayesi | 607,7 | 100,1 |
| hazır metal məmulatlarının istehsalı | 550,5 | 107,3 |
| kompyuter, elektron və optik məhsulların istehsalı | 420,1 | 109,9 |
| elektrik avadanlıqlarının istehsalı | 591,8 | 100,3 |
| maşın və avadanlıqların istehsalı | 365,5 | 100,2 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 377,4 | 130,5 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 433,6 | 100,3 |

…ardı

| | 2015-ci ilin yanvar-noyabr aylarında | 2014-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| mebellərin istehsalı | 346,1 | 100,0 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 402,4 | 149,8 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 851,3 | 116,3 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **510,1** | **104,7** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **331,6** | **100,3** |

# Tikinti

## Əsas kapitala yönəldilmiş vəsaitlər

2015-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 15957,0 milyon manat vəsait yönəldilmiş, onun 9880,6 milyon manatı və ya 61,9 faizi məhsul istehsalı obyektlərinin, 5046,7 milyon manatı (31,6 faizi) xidmət sahələri üzrə obyektlərin, 1029,7 milyon manatı (6,5 faizi) isə ümumi sahəsi 1927,2 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Ümumi sərmayənin 34,7 faizi dövlət, 65,3 faizi qeyri-dövlət sektorunun sərmayədarlarının payına düşmüşdür. Əsas kapitala yönəldilmiş vəsaitlərin 73,5 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi ümumi sərmayənin 56,0 faizini təşkil etmişdir.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 10615,5 milyon manat, bank kreditləri 1299,0 milyon manat, büdcə vəsaitləri 3005,0 milyon manat, büdcədənkənar fondların vəsaitləri 272,3 milyon manat, əhalinin şəxsi vəsaitləri 573,0 milyon manat, sair vəsaitlər 192,2 milyon manat təşkil etmişdir.

Cədvəl 25

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2015-ci idə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **15 957,0** | **88,9** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 10 615,5 | 114,1 | 66,5 |
| Bank kreditləri | 1 299,0 | 2,0 d. | 8,2 |
| Büdcə vəsaitləri | 3 005,0 | 43,9 | 18,8 |
| Büdcədənkənar fondların vəsaitləri | 272,3 | 68,5 | 1,7 |
| Əhalinin şəxsi vəsaiti | 573,0 | 100,2 | 3,6 |
| Sair vəsaitlər | 192,2 | 103,6 | 1,2 |

Qrafik 9

## Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2015-ci ildə əsas kapitala yönəldilmiş ümumi vəsaitin 52,6 faizi sənayeyə, 13,7 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrinə, 13,4 faizi tikinti, 4,0 faizi dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat, 2,9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,7 faizi istirahət, əyləncə və incəsənət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi informasiya və rabitə, 1,9 faizi təhsil, 1,5 faizi ticarət, hər birində 0,8 faiz olmaqla inzibati və yardımçı xidmətlərin göstərilməsi, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, hər birində 0,4 faiz olmaqla daşınmaz əmlakla əlaqədar fəaliyyət, digər sahələrdə xidmətlərin göstərilməsi, 0,2 faizi peşə, elmi və texniki fəaliyyət, 0,1 faizi maliyyə və sığorta fəaliyyəti sahələrinə sərf edilmişdir.

Cədvəl 26

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi**

| Sahələrin adı | 2015-ci ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **15 957,0** | **88,9** | **100,0** |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **382,8** | **103,2** | **2,4** |
| **Sənaye** | **8 389,9** | **107,8** | **52,6** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 7 200,3 | 118,8 | 45,1 |
| Emal sənayesi | 405,3 | 61,7 | 2,6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 193,2 | 44,7 | 1,2 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 591,1 | 93,1 | 3,7 |
| **Tikinti** | **2 137,6** | **94,4** | **13,4** |
| ondan yaşayış evlərinin tikintisi | 1 029,7 | 95,4 | 6,5 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **233,9** | **39,1** | **1,5** |

...ardı

| Sahələrin adı | 2015-ci ildə, milyon manat | Əvvəlki ilə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı** | **2 192,6** | **88,2** | **13,7** |
| o cümlədən: nəqliyyat | 2 187,9 | 88,3 | 13,7 |
| poçt və kuryer fəaliyyəti | 4,7 | 56,1 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **462,5** | **3,8 d.** | **2,9** |
| **İnformasiya və rabitə** | **354,9** | **2,2 d.** | **2,2** |
| ondan rabitə | 332,0 | 2,2 d. | 2,1 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **19,8** | **99,1** | **0,1** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **63,5** | **129,2** | **0,4** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **25,5** | **73,6** | **0,2** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **121,3** | **40,6** | **0,8** |
| **Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat** | **640,7** | **52,5** | **4,0** |
| **Təhsil** | **308,5** | **59,7** | **1,9** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **132,9** | **40,3** | **0,8** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **425,8** | **25,4** | **2,7** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **64,8** | **115,8** | **0,4** |

2015-ci ildə neft sektoruna 7160,7 milyon manat həcmində vəsait yönəldilmişdir. Qeyri-neft sektorunun inkişafına sərf edilmiş 8796,3 milyon manatlıq vəsaitin 1229,2 milyon manatı (ümumi sərmayənin 7,7 faizi) qeyri-neft sənayesi sektorunun inkişafında istifadə edilmişdir.

Cədvəl 27

**Neft və qeyri-neft sektoru üzrə əsas kapitala yönəldilmiş vəsaitlər**

| | Neft sektoru | | Qeyri-neft sektoru | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| Yanvar | 437,4 | 64,1 | 245,3 | 35,9 |
| Fevral | 456,4 | 45,0 | 558,4 | 55,0 |
| Mart | 636,0 | 41,4 | 899,3 | 58,6 |
| Aprel | 570,9 | 34,9 | 1 064,9 | 65,1 |
| May | 658,1 | 42,5 | 889,6 | 57,5 |
| İyun | 676,2 | 44,8 | 833,1 | 55,2 |
| İyul | 690,6 | 47,9 | 752,3 | 52,1 |
| Avqust | 645,0 | 54,6 | 536,6 | 45,4 |
| Sentyabr | 580,9 | 45,3 | 700,2 | 54,7 |
| Oktyabr | 563,0 | 44,8 | 692,9 | 55,2 |
| Noyabr | 536,7 | 39,7 | 815,0 | 60,3 |
| Dekabr | 709,5 | 46,7 | 808,7 | 53,3 |

2015-ci ildə **Bakı şəhərində** 110 kilovoltluq “Ağ şəhər-1”, “Həzi Aslanov”, “Kürdəxanı”, “Buzovna-2” və 35 kilovoltluq 11 elektrik yarımstansiyası, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Atıcılıq Mərkəzi, Velopark, Avropa Oyunları Parkı, Atletlər və Media kəndləri, Bakı Konqres Mərkəzi, “Qafqaz Baku Sport Hotel”, “Bulvar Hotel” mehmanxana kompleksləri, “Dalga Beach-Aqua Park” ailəvi istirahət mərkəzi, Sabunçu Məhkəmə Kompleksinin yeni binası, Zirə Mədəniyyət Mərkəzi, Beynəlxalq Avtovağzal ərazisindən Bakı dairəvi yolunu birləşdirən körpü və Stend Atıcılığı Kompleksinə gedən yol, **Naxçıvan Muxtar Respublikasında** Sənaye Kompleksi, Günəş Elektrik Stansiyası, **Sumqayıt şəhərində** Beton məmulatı və Texniki avadanlıqlar zavodları, Etilen-polietilen zavodunda yeni qurğular, “Alyans Tekstil” tikiş fabriki, **Abşeron rayonunda** Xırdalan Metal Konstruksiyalar zavodu, 35 kilovoltluq “Sarıqaya”, “Fatmayı”, “Məhəmmədi” elektrik yarımstansiyaları, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Qolf klubu, **Ağsu rayonunda** İdman Kompleksi, **Astara rayonunda** Deqədi-Pəlikəş avtomobil yolu, **Bərdə rayonunda**

Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar avtomobil yolu, **Cəlilabad rayonunda** Alar - Təzəkənd - Üçtəpə - Əliqasımlı - Cəfərxanlı avtomobil yolu, **Göyçay rayonunda** "Göyçay" Su Elektrik Stansiyası, **Kürdəmir rayonunda** Mollakənd-Axtaçı-Öyləqulu avtomobil yolu, Ağsu-Kürdəmir-İmişli avtomobil yolunun Ağsu-Kürdəmir hissəsi, **Qusar rayonunda** "Park Chalet Shahdag" oteli, **Siyəzən rayonunda** Siyəzən-Məşrif avtomobil yolu, **Şabran rayonunda** "Qalaaltı Otel and SPA" Müalicə-İstirahət Kompleksi, **Şəki şəhərində** Məhkəmə Kompleksinin yeni binası, **Zaqatala rayonunda** Azərbaycan Dövlət Pedaqoji Universitetinin yeni filialı, 195 çarpayılıq 2 xəstəxana, növbədə 270 nəfəri qəbul etmək imkanına malik 7 poliklinika, 11222 şagird yerlik 53 ümumtəhsil məktəbi, 2182 yerlik 23 məktəbəqədər təhsil müəssisəsi, 280 yerlik 2 klub və s. obyektlər istifadəyə verilmişdir.

Cədvəl 28

**Yaşayış evlərinin istifadəyə verilməsi**

| | Ümumi sahə, kvadrat metr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **2014-cü il**<br>Yanvar | 120 499 | 91,8 |
| Fevral | 102 361 | 89,1 |
| Mart | 150 767 | 121,0 |
| Aprel | 127 295 | 92,0 |
| May | 121 757 | 78,4 |
| İyun | 201 959 | 79,7 |
| İyul | 161 843 | 61,5 |
| Avqust | 159 065 | 119,7 |
| Sentyabr | 313 799 | 154,9 |
| Oktyabr | 185 840 | 89,4 |
| Noyabr | 161 189 | 107,5 |
| Dekabr | 390 314 | 73,8 |
| **2015-ci il**<br>Yanvar | 121 160 | 100,5 |
| Fevral | 141 713 | 138,4 |
| Mart | 151 663 | 100,6 |
| Aprel | 174 993 | 137,5 |
| May | 134 249 | 110,3 |

…ardı

| | Ümumi sahə, kvadrat metr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| İyun | 146 596 | 72,6 |
| İyul | 168 835 | 104,3 |
| Avqust | 130 314 | 81,9 |
| Sentyabr | 157 878 | 50,3 |
| Oktyabr | 163 577 | 88,0 |
| Noyabr | 143 141 | 88,8 |
| Dekabr | 293 093 | 75,1 |

Qrafik 10

**İstifadəyə verilmiş yaşayış evlərinin dinamikası**
(ümumi sahə, min kvadrat metr)



## Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlər

2015-ci ildə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 7020,1 milyon manat vəsait yönəldilmişdir.

Cədvəl 29

### Daxili və xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitlər

| | Daxili mənbələr üzrə | | Xarici mənbələr üzrə | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| Yanvar | 259,4 | 38,0 | 423,3 | 62,0 |
| Fevral | 627,1 | 61,8 | 387,7 | 38,2 |
| Mart | 881,9 | 57,4 | 653,4 | 42,6 |
| Aprel | 1 053,1 | 64,4 | 582,7 | 35,6 |
| May | 969,5 | 62,6 | 578,2 | 37,4 |
| İyun | 916,8 | 60,7 | 592,5 | 39,3 |
| İyul | 786,2 | 54,5 | 656,7 | 45,5 |
| Avqust | 582,5 | 49,3 | 599,1 | 50,7 |
| Sentyabr | 786,4 | 61,4 | 494,7 | 38,6 |
| Oktyabr | 621,7 | 49,5 | 634,2 | 50,5 |
| Noyabr | 726,2 | 53,7 | 625,5 | 46,3 |
| Dekabr | 726,1 | 47,8 | 792,1 | 52,2 |

Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 6184,3 milyon manatı (88,1 faizi) Birləşmiş Krallıq, Türkiyə, Yaponiya, Norveç, İsveç, Rusiya, İran, Malayziya və ABŞ sərmayədarlarına məxsus olmuşdur.

Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin 66,1 faizini yeni tikinti, yenidənqurma və genişləndirmə, 15,7 faizini əsaslı təmir, 5,3 faizini cari təmir, 12,9 faizini isə sair tikinti işləri təşkil etmişdir. Ümumi inşaat işlərinin 84,5 faizini qeyri-dövlət tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 11

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin strukturu** (ümumi yekuna görə, faizlə)




2015-ci ilin yanvar-noyabr aylarında inşaat sektorunda işçilərin orta sayı 98,2 min nəfər olmuş, orta aylıq əmək haqqı 2014-cü ilin müvafiq dövrünə nisbətən 7,6 faiz artaraq 674,5 manat təşkil etmişdir. İxtisaslaşdırılmış tikinti işlərində işləyənlərin əmək haqqı 29,8 faiz, mülki təyinatlı inşaat işlərində işləyənlərin əmək haqqı isə 5,5 faiz artmışdır.

Cədvəl 30

## Tikintidə fəaliyyət növləri üzrə işçilərin orta aylıq əmək haqqı

| Fəaliyyət növləri | Bir işçinin orta aylıq əmək haqqı | |
|---|---|---|
| | 2015-ci ilin yanvar-noyabr aylarında, manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **Cəmi** | **674,5** | **107,6** |
| o cümlədən: Dövlət sektoru | 512,8 | 98,1 |
| Qeyri-dövlət sektoru | 732,4 | 109,1 |
| Ümumi yekundan fəaliyyət növləri üzrə: **Binaların tikintisi** | **539,6** | **97,2** |
| **Mülki təyinatlı inşaat işləri** | **531,0** | **105,5** |
| **İxtisaslaşdırılmış tikinti işləri** | **1 202,5** | **129,8** |

# Kənd təsərrüfatı, meşəçilik və balıqçılıq

2015-ci ilin yanvar-dekabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5635,3 milyon manat təşkil etmişdir ki, onun da 2874,2 milyon manatı heyvandarlıq, 2761,1 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.

Qrafik 12

**Kənd təsərrüfatının ümumi məhsulunun strukturu**




2014-cü illə müqayisədə kənd təsərrüfatının istehsal indeksi 6,6 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 11,3 faiz, heyvandarlıq məhsulları üzrə isə 2,5 faiz artmışdır.

Cədvəl 31

## Kənd təsərrüfatı üzrə istehsal indeksinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən: | |
| | | bitkiçilik məhsulları | heyvandarlıq məhsulları |
| **2014-cü il** | | | |
| Yanvar | 103,3 | 105,1 | 103,3 |
| Yanvar-fevral | 103,4 | 105,1 | 103,4 |
| Yanvar-mart | 103,4 | 105,5 | 103,3 |
| Yanvar-aprel | 103,3 | 109,1 | 103,0 |
| Yanvar-may | 102,7 | 99,4 | 103,1 |
| Yanvar-iyun | 105,8 | 110,1 | 103,0 |
| Yanvar-iyul | 95,8 | 89,2 | 103,0 |
| Yanvar-avqust | 96,3 | 90,8 | 102,8 |
| Yanvar-sentyabr | 96,3 | 91,0 | 103,0 |
| Yanvar-oktyabr | 97,0 | 91,9 | 103,1 |
| Yanvar-noyabr | 97,1 | 91,9 | 103,0 |
| Yanvar-dekabr | 97,4 | 91,7 | 103,0 |
| **2015-ci il** | | | |
| Yanvar | 103,5 | 103,8 | 103,5 |
| Yanvar-fevral | 103,1 | 103,5 | 103,1 |
| Yanvar-mart | 103,4 | 105,9 | 103,3 |
| Yanvar-aprel | 103,7 | 108,4 | 103,5 |
| Yanvar-may | 104,1 | 112,2 | 103,3 |
| Yanvar-iyun | 107,3 | 114,0 | 102,6 |
| Yanvar-iyul | 108,9 | 115,8 | 102,4 |
| Yanvar-avqust | 107,4 | 112,3 | 102,2 |
| Yanvar-sentyabr | 106,7 | 110,4 | 102,5 |
| Yanvar-oktyabr | 106,7 | 110,7 | 102,4 |
| Yanvar-noyabr | 106,7 | 110,8 | 102,5 |
| Yanvar-dekabr | 106,6 | 111,3 | 102,5 |

**Bitkiçilik.** İlkin məlumatlara görə 2015-ci ildə 915,1 min hektar payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin sahəsi (qarğıdalısız) biçilib döyülmüş və hər hektardan orta hesabla 30,4 sentner olmaqla 2785,9 min ton məhsul götürülmüşdür. Bundan

başqa, hesabat dövründə 35,9 min hektar qarğıdalı sahəsindən qıçaları quru dənə çevirməklə 213,1 min ton məhsul toplanmış, hər hektardan orta hesabla 59,2 sentner qarğıdalı dəni götürülmüşdür. Qarğıdalı dəni nəzərə alınmaqla ölkə üzrə 951,0 min hektar dənli və dənli paxlalı bitki sahələrindən ilkin çəkidə 2999,0 min ton taxıl məhsulu toplanmışdır. Hektarın orta məhsuldarlığı 31,5 sentner olmuşdur.

Dənli və dənli paxlalıların tərkibində payızlıq və yazlıq buğda əsas yer tutur. İstehsal olunmuş taxıl məhsulunun 56,3 faizini (1687,7 min ton) buğda, 7,1 faizini (213,1 min ton) qarğıdalı təşkil etmişdir.

Hesabat ilində sahələrdən 839,8 min ton kartof, 1273,3 min ton tərəvəz, 484,5 min ton bostan məhsulları toplanmışdır. 2014-cü ilə nisbətən kartof istehsalı 2,5 faiz, tərəvəz istehsalı 7,2 faiz və bostan məhsulları istehsalı 9,9 faiz artmışdır. Hektarın orta məhsuldarlığı kartof üzrə 3 sentner, tərəvəz üzrə 6 sentner, bostan məhsulları üzrə 17 sentner artaraq müvafiq olaraq 136, 158 və 174 sentner olmuşdur.

2015-ci ildə tütün istehsalında artım müşahidə olunmuşdur. Belə ki, əkin sahəsinin 22,8 faiz artması tütün yarpağı istehsalının artmasına səbəb olmuş və qurudulmuş çəkidə 3,5 min ton tütün yarpağı yığılmaqla, əvvəlki ilin səviyyəsini 21,3 faiz üstələmişdir.

2016-cı ilin yanvarın 1-i vəziyyətinə 18,9 min ton dən üçün günəbaxan istehsal edilmiş, tədarük müəssisələrinə isə 35,0 min ton pambıq yığılıb satılmışdır.

Ölkədə əvvəlki il 4922 hektar sahədə emal üçün şəkər çuğunduru əkini aparılmış, 4896 hektarın (99,5 faiz) çuğunduru qazılmış və həmin sahələrin hər hektarından 380 sentner olmaqla 186,1 min ton məhsul götürülmüşdür.

2015-ci ildə meyvə, üzüm və çay yarpağı istehsalı 2014-cü ildəki səviyyədən bir qədər artıq olmuşdur. Belə ki, hesabat tarixinə 886,3 min ton və yaxud 2014-cü ildəkindən 35,5 min ton çox (4,2 faiz) meyvə və giləmeyvə, 157,0 min ton və yaxud 9,3 min ton çox (6,3 faiz) üzüm və 578,9 ton və yaxud 104,6 ton çox (22,1 faiz) yaşıl çay yarpağı məhsulu toplanmışdır.

Cədvəl 32

## Bitkiçilik məhsullarının istehsalı və məhsuldarlığı

| | **İstehsal, min ton** | | | **Məhsuldarlıq, sent/ha** | | |
|---|---|---|---|---|---|---|
| | **2015** | **2014** | **2015-ci il 2014-cü ilə, %-lə** | **2015** | **2014** | **2015-ci il 2014-cü ilə, %-lə** |
| Dənli və dənli paxlalıların cəmi*) | 2 999,0 | 2 383,3 | 125,8 | 31,5 | 24,0 | 131,3 |
| ondan: | | | | | | |
| yazlıq və payızlıq buğda | 1 687,7 | 1 449,1 | 116,5 | 31,3 | 24,0 | 130,4 |
| dən üçün qarğıdalı | 213,1 | 203,6 | 104,7 | 59,2 | 54,2 | 109,2 |
| Pambıq | 35,0 | 41,0 | 85,4 | 18,7 | 17,9 | 104,5 |
| Dən üçün günəbaxan*) | 18,9 | 20,3 | 93,1 | 17,6 | 17,0 | 103,5 |
| Şəkər çuğunduru*) | 186,1 | 175,1 | 106,3 | 380 | 309 | 123,0 |
| Tütün | 3,5 | 2,9 | 121,3 | 25,4 | 25,8 | 98,4 |
| Kartof | 839,8 | 819,3 | 102,5 | 136 | 133 | 102,3 |
| Tərəvəz | 1273,3 | 1 187,7 | 107,2 | 158 | 152 | 103,9 |
| Bostan məhsulları | 484,5 | 440,9 | 109,9 | 174 | 157 | 110,8 |
| Meyvə və giləmeyvə | 886,3 | 850,8 | 104,2 | 71,3 | 72,0 | 99,0 |
| Üzüm | 157,0 | 147,7 | 106,3 | 86,2 | 82,5 | 104,5 |
| Yaşıl çay yarpağı, ton | 578,9 | 474,3 | 122,1 | 12,3 | 10,1 | 121,8 |

*) ilkin çəkidə

2015-ci il sahələrdə payız-tarla işləri başa çatdırılmışdır. Payızlıq əkinlər üçün qaldırılmış 1044,6 min hektar şumun 90,4 faizi əkin üçün istifadə edilmiş və 2016-cı ilin məhsulu ücün 944,6 min hektarda dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Bunun 927,4 min hektarı və ya 98,2 faizi dən üçün nəzərdə tutulmuşdur. Dənlik taxılın 62,9 faizi və ya 583,0 min hektarı buğda, 37,1 faizi və ya 344,4 min hektarı arpa əkini sahəsidir. Əvvəlki ilin müvafiq dövrünə nisbətən buğdanın əkin sahəsi 8,5 faiz, arpanın əkin sahəsi isə 1,8 faiz artmışdır.

**Heyvandarlıq.** Heyvandarlıq kənd təsərrüfatının əsas sahələrindən biridir və son illərdə dövlətin dəstəyi ilə ölkəyə cins mal-qaranın gətirilməsi və təsərrüfatlarda süni mayalanmaya üstünlük verilməsi mal-qaranın baş sayının sabitləşdirilməsinə səbəb olmaqla yanaşı, məhsul istehsalına da öz müsbət təsirini göstərmişdir. Belə ki, 2015-ci ildə diri çəkidə 515,6 min ton ət, 1924,4 min ton süd, 1538,6 milyon ədəd yumurta və 17,0 min ton yun istehsal edilmişdir. Ət istehsalı 2014-cü illə müqayisədə 10,1 min ton və ya 2,0 faiz, süd istehsalı 68,6 min ton və ya 3,7 faiz, yun istehsalı 236 ton və ya 1,4 faiz artmış, yumurta istehsalı isə 24,1 milyon ədəd və ya 1,5 faiz azalmışdır.

Yumurta istehsalının azalmasına iri quşçuluq fabriklərində yumurta istehsalının aşağı düşməsi təsir etmişdir. Buna səbəb isə yem və dərman preparatlarının bahalaşması nəticəsində yaşlı toyuqların satılaraq, yerinə cavan quşların alınmaması, bəzi müəssisələrin isə yumurtalıq istiqamətindən ətlik istiqamətə keçməsi olmuşdur. Nəticə etibarı ilə yumurta istehsalı üzrə bütün təsərrüfat kateqoriyalarında kənd təsərrüfatı müəssisələrinin xüsusi çəkisi əvvəlki illə müqayisədə 45,1 faizdən 41,3 faizə enmişdir.

## Əsas növ heyvandarlıq məhsullarının istehsalı
(artan yekunla)

Qrafik 13

**Ət istehsalı (diri çəkidə), min ton**




Qrafik 14

**Süd istehsalı, min ton**



Qrafik 15

**Yumurta istehsalı, milyon ədəd**




Qrafik 16

**Yun istehsalı, min ton**



2015-ci il yanvarın 1-nə mövcud inək və camışların sayına hesablamaqla 2015-ci ildə orta süd sağımı 1455 kiloqrama (2014-cü il 1402 kq) bərabər olmuşdur.

İlkin məlumatlara görə 2016-cı il yanvarın 1-i vəziyyətinə ölkə üzrə 2708,5 min baş iribuynuzlu mal-qara, o cümlədən 1303,1 min baş inək və camış, 8674,8 min baş qoyun və keçi və 5077 baş donuz mövcud olmuşdur. 2015-ci il yanvarın 1-nə nisbətən iribuynuzlu mal-qaranın sayı 11,0 min baş (0,4 faiz), o cümlədən inək və camışların sayı 3,9 min baş (0,3 faiz), qoyun və keçilərin sayı 29,4 min baş (0,3 faiz) artmış, donuzların sayı 1066 baş (17,4 faiz) azalmışdır. Qaramal naxırının 48,1 faizini inək və camışlar təşkil edir.

Ötən il quşçuluq fabriklərində diri çəkidə 77,1 min ton quş əti və 633,0 milyon ədəd yumurta istehsal olunmuşdur. Ümumilikdə fabriklər üzrə cəmi quşların sayı 9356,0 min baş olmuş, hər yumurtlayan toyuqdan orta hesabla 212 ədəd yumurta alınmışdır.

Qrafik 17

**Mal-qaranın sayı,**
**2016-cı il yanvarın 1-i vəziyyətinə, min baş**



**Meşə təsərrüfatı.** 2015-ci ildə ölkənin meşəçilik təsərrüfatlarında istehsal edilmiş mal və xidmətlərin faktiki qiymətlərlə dəyəri 12,5 milyon manat olmuşdur.

2015-ci ildə ölkədə 3 meşə yanğını qeydə alınmış və yanğın 3,5 hektar sahəni əhatə etmişdir.

**Balıqçılıq təsərrüfatı.** Balıqçılıq təsərrüfatları və fiziki şəxslər tərəfindən 2015-ci ildə 190,1 milyon manat dəyərində 51,2 min ton balıq ovlanmışdır.

Cədvəl 33

**Kənd, meşə və balıqçılıq təsərrüfatlarının ümumi məhsulu**
(müvafiq illərin faktiki qiymətləri ilə, min manat)

| | **2015-ci il** | **2014-cü il** |
|---|---|---|
| **Cəmi** | **5 837 947,6** | **5 432 069,6** |
| o cümlədən: | | |
| kənd təsərrüfatı | 5 635 290,1 | 5 225 769,5 |
| meşə təsərrüfatı | 12 523,9*) | 11 716,8 |
| balıqçılıq təsərrüfatı | 190 133,6*) | 194 583,3 |

*) ilkin məlumat

# Nəqliyyat

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2015-ci ilin yanvar-dekabr ayları ərzində 222,4 milyon ton yük daşınmış və 2014-cü ilin müvafiq dövrünə nisbətən 0,2 faiz artım müşahidə olunmuşdur. Yüklərin 3,0 faizi dəniz, 7,7 faizi dəmir yolu, 61,9 faizi avtomobil nəqliyyatı, 27,4 faizi isə boru kəməri ilə daşınmışdır. Qeyri-neft yüklərinin həcmi 1,6 faiz artaraq 161,6 milyon tona çatmışdır.

Qrafik 18

**Yük daşınmasının ayrı-ayrı nəqliyyat növləri üzrə strukturu, yekuna nisbətən**




Qeyri-dövlət sektorunda yük daşınması 5,3 faiz artmış, bu sektora məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı daşımaların ümumi həcmində 80,3 faiz təşkil etmişdir.

2015-ci ilin yanvar-dekabr aylarında nəqliyyatçılar 1891,9 milyon sərnişinə və ya 2014-cü ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88,1 faizi avtomobil nəqliyyatı, 11,7 faizi metro, qalanları isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**Dəmir yolu nəqliyyatı** ilə 2015-ci ilin yanvar-dekabr aylarında 17,1 milyon ton yük, 1,9 milyon sərnişin daşınmış, 2014-cü ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 21,6 faiz və 25,1 faiz azalma müşahidə olunmuşdur.

Orta hesabla sutkada 374 vaqon yüklənmiş, 446 vaqon isə boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 15,3 min ton, Qərb istiqaməti üzrə 4,2 min ton, Cənub istiqaməti üzrə isə 1,8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatı** ilə 2015-ci ilin yanvar-dekabr aylarında daşınmış yüklərin həcmi 6,6 milyon ton təşkil etmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 33,3 faiz azalmışdır. Yüklərin 64,9 faizini neft yükləri təşkil etmişdir.

Dəniz limanları tərəfindən 8,55 milyon ton həcmində yükləmə-boşaltma işləri həyata keçirilmiş və yüklərin 8,06 milyon tonunu və ya 94,3 faizini tranzit yüklər təşkil etmişdir. 2016-cı il yanvar ayının 1-i vəziyyətinə limanlarda qalan idxal yüklərin həcmi 132,4 min ton olmuşdur.

Dövr ərzində bu nəqliyyat növü ilə daşınmış sərnişinlərin sayı 2014-cü ilin müvafiq dövrünə nisbətən 43,6 faiz azalaraq 8,4 min nəfər olmuşdur.

Qrafik 19



Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan **avtomobil nəqliyyatı** ilə 137,6 milyon ton yük, 1666,2 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 7,0 faiz və 3,6 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,2 faizi avtobus, 3,8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişdir. Yük dövriyyəsi 7,0 faiz, sərnişin dövriyyəsi isə 3,6 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 3,0 faiz artaraq 222,0 milyon nəfərə çatmışdır.

**Hava nəqliyyatı** ilə 1,8 milyon və ya 1,8 faiz çox sərnişin daşınmış, daşımaların 99,5 faizi dövlət, 0,5 faizi isə özəl müəssisələrə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə yükdaşıma 3,3 faiz artaraq 127,9 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 45,7 milyon ton neft nəql edilmişdir. Nəqletmənin 76,2 faizi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və keçən ilin yanvar-dekabr ayları ərzində bu kəmər vasitəsilə 34,81 milyon ton neft ötürülmüşdür. Dövr ərzində BTC kəməri ilə 5,5 milyon ton tranzit nefti də nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 21,2 milyard kub-metr qaz nəql edilmiş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,2 faiz azalma müşahidə olunmuşdur. Qazın nəqlinin 31,4 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 6,65 milyard kub-metr qaz ötürülmüşdür.

2015-ci ilin yanvar-noyabr aylarında **Avropa-Qafqaz-Asiya** nəqliyyat dəhlizinin Azərbaycan hissəsində yük daşınması 47,8 milyon ton, yük dövriyyəsi isə 10072,8 milyon ton-km olmuşdur. Yüklərin 27,89 milyon tonu və ya 58,3 faizi avtomobil nəqliyyatı, 14,25 milyon tonu və ya 29,8 faizi dəmir yolu nəqliyyatı, 5,69 milyon tonu və ya 11,9 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Dəhliz vasitəsilə daşınmış yüklərin 18,3 faizini və ya 8,74 milyon tonunu tranzit yüklər təşkil etmişdir.

## İnformasiya və rabitə

2015-ci ilin yanvar-dekabr ayları ərzində **informasiya və rabitə müəssisələri** hüquqi və fiziki şəxslərə 1642,8 milyon manatlıq xidmət göstərmişdir ki, onun da 72,6 faizi əhali sektoruna aid olmuşdur. 2014-cü ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin həcmi 6,8 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Xidmətlərdən əldə olunmuş gəlirlərin 53,0 faizi və ya 870,2 milyon manatı mobil telefon rabitəsindən yaranmışdır.

# İstehlak bazarı

2015-ci ildə istehlakçıların tələbatlarının ödənilməsi məqsədi ilə ölkə bazarlarında satılmış məhsulların həcmi 34,3 milyard manat olmaqla 2014-cü illə müqayisədə 9,7 faiz artmışdır.

Qeyri-dövlət sektorunun ticarət və xidmət fəaliyyəti daha da genişlənmiş, satılmış məhsulların ümumi həcmi əvvəlki ilin səviyyəsini 10,1 faiz üstələyərək 32,6 milyard manata bərabər olmuşdur. İstehlak bazarı üzrə real artımın 99,2 faizi qeyri-dövlət sektorunun fəaliyyəti nəticəsində təmin edilmişdir.

Cədvəl 34

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2015-ci il, milyon manatla | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış məhsulların ümumi həcmi** | **34 295,1** | **109,7** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 1 652,1 | 101,4 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 32 643,0 | 110,1 |

Hesabat ilində hər bir istehlakçı orta hesabla ayda 299,9 manatlıq və ya 2014-cü ilin müvafiq göstəricisi ilə müqayisədə 34,6 manat çox əmtəə almış və pullu xidmətlərdən istifadə etmişdir.

# Məhsul bazarı

2015-ci ildə pərakəndə ticarət dövriyyəsinin həcmi 2014-cü illə müqayisədə 10,9 faiz artaraq 25,7 milyard manat olmuşdur.

İstehlak məhsullarının 99,8 faizi qeyri-dövlət təsərrüfat subyektləri tərəfindən, o cümlədən 10,8 faizi hüquqi şəxs statuslu müəssisələr tərəfindən satılmışdır. Qeyri-dövlət sektoru üzrə pərakəndə ticarət dövriyyəsinin həcmi 2014-cü ilin səviyyəsini 10,9 faiz üstələyərək 25682,7 milyon manata bərabər olmuşdur.

Cədvəl 35

**Məhsul bazarı üzrə əsas göstəricilər**

| | 2015-ci il, milyon manatla | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsinin həcmi** | **25 721,1** | **110,9** |
| o cümlədən: ərzaq məhsulları, içkilər və tütün məmulatları | 12 871,2 | 110,1 |
| qeyri-ərzaq məhsulları | 12 849,9 | 112,8 |

Qrafik 20

**Pərakəndə ticarət şəbəkəsində istehlak məhsullarının satışı və qiymət indeksinin dinamikası**

(əvvəlki aya nisbətən, faizlə)




Hesabat ilində pərakəndə ticarət şəbəkəsindən hər bir istehlakçı orta hesabla ayda 224,9 manatlıq və ya 2014-cü ilin eyni göstəricisi ilə müqayisədə 30,2 manat çox əmtəə almışdır.

Qrafik 21

**2015-ci ildə**
**pərakəndə ticarət dövriyyəsinin strukturu**



Cədvəl 36

## Pərakəndə ticarət dövriyyəsinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsinin həcmi | o cümlədən: | |
| | | ərzaq məhsulları, içkilər və tütün məmulatları | qeyri-ərzaq məhsulları |
| **2015-ci il** | | | |
| Yanvar | 109,4 | 101,9 | 118,2 |
| Yanvar-fevral | 108,5 | 101,6 | 116,8 |
| Yanvar-mart | 109,6 | 103,2 | 117,4 |
| Yanvar-aprel | 109,6 | 104,8 | 115,4 |
| Yanvar-may | 109,7 | 106,3 | 114,0 |
| Yanvar-iyun | 113,4 | 109,6 | 118,4 |
| Yanvar-iyul | 112,5 | 109,8 | 116,6 |
| Yanvar-avqust | 111,3 | 109,4 | 114,4 |
| Yanvar-sentyabr | 111,4 | 110,0 | 113,8 |
| Yanvar-oktyabr | 111,2 | 110,0 | 113,4 |
| Yanvar-noyabr | 111,1 | 109,6 | 113,5 |
| Yanvar-dekabr | 110,9 | 110,1 | 112,8 |
| **2014-cü il** | | | |
| Yanvar | 109,3 | 100,2 | 122,1 |
| Yanvar-fevral | 109,0 | 100,9 | 120,1 |
| Yanvar-mart | 109,2 | 101,2 | 119,9 |
| Yanvar-aprel | 109,1 | 102,1 | 117,6 |
| Yanvar-may | 108,8 | 102,2 | 116,4 |
| Yanvar-iyun | 108,9 | 102,8 | 115,5 |
| Yanvar-iyul | 109,1 | 103,5 | 115,0 |
| Yanvar-avqust | 109,3 | 103,5 | 115,4 |
| Yanvar-sentyabr | 109,4 | 103,2 | 115,9 |
| Yanvar-oktyabr | 109,6 | 103,3 | 116,1 |
| Yanvar-noyabr | 109,5 | 103,6 | 115,6 |
| Yanvar-dekabr | 110,0 | 103,9 | 116,2 |

Hesabat ilində pərakəndə şəbəkədə satılmış ərzaq məhsullarının həcmi 2014-cü ilin səviyyəsini 10,1 faiz üstələyərək 12871,2 milyon manata çatmışdır. Ticarət dövriyyəsinin həcmi 12849,9 milyon manat təşkil edən qeyri-ərzaq məhsulları üzrə satışın həcmi isə 2014-cü illə müqayisədə 12,8 faiz çox olmuşdur.

2015-ci ildə hər bir istehlakçı pərakəndə ticarət şəbəkəsindən orta hesabla ayda 112,5 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 112,4 manatlıq qeyri-ərzaq məhsulları almışdır. 2014-cü ilin müvafiq göstəricisi ilə müqayisədə istehlakçılar tərəfindən qeyri-ərzaq məhsullarının alınmasına 15,2 manat, ərzaq məhsullarının, içkilər və tütün məmulatlarının alınmasına 15,0 manat daha çox vəsait xərclənmişdir.

Cədvəl 37

**2015-ci ildə pərakəndə ticarət dövriyyəsinin məhsullar üzrə strukturu**

| | Satışdan gəlir, milyon manatla | 2014-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi** | **25 721,1** | **110,9** |
| o cümlədən: ərzaq məhsulları | 11 690,0 | 111,5 |
| içkilər və tütün məmulatları | 1 181,2 | 101,4 |
| toxuculuq malları, geyim və ayaqqabılar | 4 579,9 | 115,1 |
| elektrik malları və mebel | 1 550,2 | 112,7 |
| kompyuterlər, telekommunikasiya avadanlıqları və digər məmulatlar | 198,0 | 113,5 |
| əczaçılıq və tibbi mallar | 300,2 | 110,1 |
| avtomobil yanacağı | 1 709,7 | 108,8 |
| digər qeyri-ərzaq məhsulları | 4 511,9 | 112,9 |

Hesabat ilində istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 50,0 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 17,8 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,7 faizi avtomobil yanacağının, 6,0 faizi elektrik malları və mebelin, 1,2 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompyuterlər, telekommunikasiya avadanlıqları və digər məmulatların, 17,5 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

2015-ci ildə elektron pərakəndə ticarət şəbəkəsində istehlakçılara 12,8 milyon manatlıq və ya 2014-cü illə müqayisədə 1,9 dəfə çox istehlak məhsulları satılmışdır. Elektron şəbəkə vasitəsi ilə qeyri-ərzaq məhsullarının satışı 2014-cü ilin səviyyəsini 1,9 dəfə üstələyərək 12,3 milyon manata bərabər olmuşdur.

# İctimai iaşə xidmətləri

2015-ci ildə iaşə xidmətlərinin həcmi 2014-cü illə müqayisədə14,0 faiz artaraq 1111,2 milyon manat olmuşdur.

Cədvəl 38

**İaşə xidmətlərinə dair əsas göstəricilər**

| | 2015-ci ildə, min manatla | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə |
|---|---|---|
| **İaşə xidmətlərinin həcmi** | **1 111232,0** | **114,0** |
| o cümlədən:<br>dövlət mülkiyyəti | 15254,5 | 101,2 |
| qeyri-dövlət mülkiyyəti | 1 095977,5 | 114,2 |
| ondan:<br>hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar | 626986,9 | 121,1 |

Qeyri-dövlət sektorunda iaşə xidmətlərinin 42,8 faizi hüquqi şəxs statuslu müəssisələrin, 57,2 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşmüşdür. Bu dövr ərzində hüquqi şəxs statuslu qeyri-dövlət müəssisələrində iaşə xidmətlərinin həcmi 2014-cü illə müqayisədə 6,0 faiz artaraq 469,0 milyon manata çatmışdır.

İl ərzində ölkə əhalisinin hər bir nəfəri orta hesabla 116,6 manatlıq iaşə xidmətlərindən istifadə etmişdir ki, bu da ötən ilin müvafiq göstəricisindən 15,1manat çox olmuşdur.

## Əhaliyə göstərilən pullu xidmətlər

2015-ci ilin yanvar-dekabr aylarında əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2014-cü ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz artaraq 7462,8 milyon manat olmuşdur. Artımın 56,9 faizi hüquqi şəxslərin fəaliyyəti nəticəsində və onlar tərəfindən əhaliyə 5440,6 milyon manatlıq xidmət göstərilmişdir. Bu, 2014-cü ilin müvafiq dövrünün göstəricisini 3,9 faiz üstələmişdir.

Cədvəl 39

**Pullu xidmətlərin həcmi**

| | 2015-ci ilin yanvar-dekabr ayları, milyon manat | 2015-ci ilin yanvar-dekabr ayları 2014-cü ilin yanvar-dekabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Göstərilmiş pullu xidmətlərin ümumi həcmi-cəmi** | **7462,8** | **105,1** |
| o cümlədən: dövlət mülkiyyətli hüquqi şəxslər tərəfindən | 1598,5 | 101,4 |
| qeyri-dövlət subyektləri tərəfindən | 5864,3 | 106,2 |
| ondan hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar | 2022,2 | 108,4 |

Hesabat dövründə hər bir ölkə sakini orta hesabla 65,3 manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,2 manat çox müxtəlif pullu xidmətlərdən istifadə etmişdir.

Əhaliyə göstərilən pullu xidmətlərin indekslərinin dinamikası aşağıdakı kimi olmuşdur:

Cədvəl 40

**Əhaliyə göstərilən pullu xidmətlərin indekslərinin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən pullu xidmətlər | o cümlədən: hüquqi şəxslər üzrə | o cümlədən: hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər üzrə |
| **2014-cü il** | | | |
| Yanvar | 107,8 | 106,9 | 110,5 |
| Yanvar-fevral | 106,9 | 105,5 | 111,3 |
| Yanvar-mart | 107,0 | 105,5 | 111,8 |
| Yanvar-aprel | 106,6 | 105,2 | 111,2 |
| Yanvar-may | 106,7 | 105,5 | 110,3 |
| Yanvar-iyun | 106,9 | 105,6 | 110,9 |
| Yanvar-iyul | 106,6 | 105,3 | 110,9 |
| Yanvar-avqust | 106,3 | 105,1 | 110,4 |
| Yanvar-sentyabr | 106,4 | 105,1 | 110,5 |
| Yanvar-oktyabr | 106,6 | 105,3 | 110,5 |
| Yanvar-noyabr | 106,5 | 105,1 | 110,6 |
| Yanvar-dekabr | 107,2 | 105,7 | 111,6 |
| **2015-ci il** | | | |
| Yanvar | 105,5 | 104,8 | 107,6 |
| Yanvar-fevral | 105,1 | 104,6 | 106,5 |
| Yanvar-mart | 105,3 | 104,4 | 108,0 |
| Yanvar-aprel | 105,2 | 104,1 | 108,5 |
| Yanvar-may | 105,4 | 104,0 | 109,6 |
| Yanvar-iyun | 106,0 | 104,4 | 110,9 |
| Yanvar-iyul | 106,7 | 104,9 | 112,1 |
| Yanvar-avqust | 106,2 | 104,7 | 110,7 |
| Yanvar-sentyabr | 106,2 | 104,6 | 110,9 |
| Yanvar-oktyabr | 105,8 | 104,3 | 110,3 |
| Yanvar-noyabr | 105,4 | 104,0 | 109,3 |
| Yanvar-dekabr | 105,1 | 103,9 | 108,4 |

Qrafik 22

**Əhaliyə göstərilən pullu xidmətlər üzrə qiymət və fiziki  həcm indeksləri**

(əvvəlki aya nisbətən, faizlə)



# Qiymət indeksləri

Cədvəl 41

| | 2015-ci ilin dekabr ayı 2015-ci ilin noyabr ayına nisbətən, faizlə | 2015-ci ilin yanvar-dekabr ayları 2014-cü ilin yanvar-dekabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| İstehlak qiymətləri indeksi | 104,4 | 104,0 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 100,4 | 69,4 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 100,4 | 101,2 |
| Nəqliyyat xidmətlərinin qiymət indeksi | 111,4 | 111,9 |
| Poçt və kuryer xidmətlərinin qiymət indeksi | 100,8 | 102,4 |
| Rabitə xidmətlərinin qiymət indeksi | 100,0 | 96,0 |

Qrafik 23

## İstehlak və istehsalçı qiymət indeksləri, faizlə



Qrafik 24

**İstehlak məhsullarının və xidmətlərin qiymət indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




# İstehlak məhsullarının və xidmətlərin qiymətləri

2015-ci ilin dekabr ayında istehlak məhsullarının və xidmətlərin qiymətləri noyabr ayına nisbətən 4,4 faiz, 2014-cü ilin yanvar-dekabr aylarına nisbətən isə 4,0 faiz bahalaşmışdır.

Cədvəl 42

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

| | Cəmi məhsullar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | əvvəlki aya nisbətən, faizlə | əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **2014-cü il** | | | | |
| Yanvar | 99,8 | 102,2 | 100,2 | 102,6 |
| Fevral | 100,4 | 102,1 | 100,8 | 102,4 |
| Mart | 100,3 | 102,0 | 100,6 | 102,2 |
| **I rüb** | **101,7** | **102,0** | **103,2** | **102,2** |
| Aprel | 100,2 | 101,9 | 100,2 | 101,9 |
| May | 99,2 | 101,7 | 98,1 | 101,5 |
| İyun | 98,8 | 101,6 | 97,1 | 101,2 |
| **II rüb** | **99,6** | **101,2** | **98,7** | **100,2** |

…ardı...

| | Cəmi məhsullar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| **CƏMİ** | **100325** | **6266** | **6,3** | **504** | **0,5** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 9561 | 333 | 3,5 | 24 | 0,3 |
| Mədənçıxarma sənayesi | 791 | 35 | 4,4 | 7 | 0,9 |
| Emal sənayesi | 5799 | 206 | 3,5 | 29 | 0,5 |

…ardı

| Fəaliyyət növləri | 01.01.2016-c il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2015-ci ilin yanvar-dekabr ayları ərzində yeni yaradılmış müəssisə və təşkilatların sayı | | 2015-ci ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatların sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 309 | 9 | 2,9 | 2 | 0,6 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 474 | 19 | 4,0 | 3 | 0,6 |
| Tikinti | 10641 | 462 | 4,3 | 60 | 0,6 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 25937 | 1310 | 5,1 | 111 | 0,4 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1943 | 109 | 5,6 | 14 | 0,7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1544 | 314 | 20,3 | 5 | 0,3 |
| İnformasiya və rabitə | 2456 | 264 | 10,7 | 14 | 0,6 |
| Maliyyə və sığorta fəaliyyəti | 1591 | 88 | 5,5 | 10 | 0,6 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 1203 | 37 | 3,1 | 11 | 0,9 |
| Peşə, elmi və texniki fəaliyyət | 6677 | 588 | 8,8 | 46 | 0,7 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3577 | 243 | 6,8 | 22 | 0,6 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 4769 | 20 | 0,4 | 40 | 0,8 |
| Təhsil | 3368 | 319 | 9,5 | 23 | 0,7 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1657 | 75 | 4,5 | 8 | 0,5 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1573 | 109 | 6,9 | 7 | 0,4 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 16362 | 1721 | 10,5 | 67 | 0,4 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 93 | 5 | 5,4 | 1 | 1,1 |

2015-ci il ərzində ləğv edilmiş müəssisə və təşkilatların 22,0 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 13,3 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 11,9 faizi "Tikinti", 9,1 faizi "Peşə, elmi və texniki fəaliyyət", 7,9 faizi "Dövlət idarəetməsi və müdafiə; sosial təminat", 5,8 faizi "Emal sənayesi", qalanları isə digər sahələrin payına düşür.

Bu dövrdə yeni yaradılmış müəssisə və təşkilatların 27,4 faizi "Digər sahələrdə xidmətlərin göstərilməsi", 20,9 faizi "Ticarət; nəqliyyat vasitələrinin təmiri", 9,4 faizi "Peşə, elmi və texniki fəaliyyət", 7,4 faizi "Tikinti", 5,3 faizi "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", 5,1 faizi "Təhsil", qalanları isə digər bölmələrin payına düşür.

Cədvəl 61

**Yeni yaradılmış və ləğv edilmiş müəssisələrin sayının mülkiyyət növlərinə görə strukturu**

| Mülkiyyət növləri | 01.01.2016-cı il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2015-ci ilin yanvar-dekabr ayları ərzində yeni yaradılmış müəssisə və təşkilatların sayı | | 2015-ci ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatların sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| **CƏMİ** | **100325** | **6266** | **6,3** | **504** | **0,5** |
| o cümlədən: Dövlət mülkiyyətli müəssisələr | 10646 | 255 | 2,4 | 88 | 0,8 |
| Bələdiyyə mülkiyyətli müəssisələr* | 1694 | 55 | 3,2 | 14 | 0,8 |
| Xüsusi mülkiyyətli müəssisələr | 87985 | 5956 | 6,8 | 402 | 0,5 |
| o cümlədən: xarici müəssisələr (100% xarici investisiyalı ) | 5781 | 412 | 7,1 | 64 | 1,1 |
| birgə müəssisələr | 1850 | 115 | 6,2 | 16 | 0,9 |

* Bələdiyyələr də daxil edilməklə

2015-ci il ərzində yeni yaradılmış müəssisə və təşkilatların 95,0 faizi xüsusi mülkiyyətli (o cümlədən 6,6 faizi tam xarici investisiyalı, 1,8 faizi birgə mülkiyyətli), 0,9 faizi bələdiyyə mülkiyyətli, 4,1 faizi dövlət mülkiyyətli müəssisələrin payına düşür.

Cədvəl 62

**İqtisadi rayonlar üzrə Statistik vahidlərin Dövlət registrinin tərkibinin dəyişməsi**

| | 01.01.2016-cı il vəziyyətinə müəssisə və təşkilatların sayı | 2015-ci ilin yanvar-dekabr ayları ərzində yeni yaradılmış müəssisə və təşkilatların sayı | | 2015-ci ilin yanvar-dekabr ayları ərzində ləğv edilmiş müəssisə və təşkilatların sayı | |
|---|---|---|---|---|---|
| | | cəmi | %-lə | cəmi | %-lə |
| **CƏMİ** | **100325** | **6266** | **6,3** | **504** | **0,5** |
| Bakı | 53448 | 3373 | 6,3 | 339 | 0,6 |
| İqtisadi rayonlar:<br>Abşeron iqtisadi rayonu | 6437 | 508 | 7,9 | 31 | 0,5 |
| Gəncə-Qazax iqtisadi rayonu | 6925 | 338 | 4,9 | 33 | 0,5 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 4324 | 190 | 4,4 | 7 | 0,2 |
| Lənkəran iqtisadi rayonu | 6071 | 679 | 11,2 | 7 | 0,1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2987 | 121 | 4,1 | 6 | 0,2 |
| Aran iqtisadi rayonu | 13816 | 744 | 5,4 | 33 | 0,2 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 2033 | 109 | 5,4 | 5 | 0,3 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 507 | 9 | 1,8 | 0 | 0,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1907 | 152 | 8,0 | 14 | 0,7 |
| Naxçıvan iqtisadi rayonu | 1870 | 43 | 2,3 | 29 | 1,6 |

Qeydiyyatda olan müəssisə və təşkilatların 53,3 faizi Bakıda yerləşmişdir. Hesabat dövründə yeni yaradılmış müəssisə və təşkilatların 53,8 faizi Bakıda, 11,9 faizi Aran, 10,8 faizi Lənkəran, 8,1 faizi Abşeron və 5,4 faizi Gəncə-Qazax iqtisadi

rayonlarında qeydiyyata alınmışlar. Statistik vahidlərin yaradılması prosesi Lənkəran (11,2%), Dağlıq Şirvan (8,0%), Abşeron (7,9%), Bakı şəhərində (6,3%), Yuxarı Qarabağ və Aran (5,4% hər birində), Gəncə-Qazax (4,9%), Şəki-Zaqatala (4,4%) və Quba-Xaçmaz (4,1%) iqtisadi rayonlarında daha fəal olunmuşdur.

Bu dövrdə Bakı şəhəri üzrə 339, Aran və Gəncə-Qazax iqtisadi rayonları üzrə 33 (hər birində), Abşeron iqtisadi rayonu üzrə 31, Naxçıvan iqtisadi rayonu üzrə 29, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 14, Şəki-Zaqatala və Lənkəran iqtisadi rayonları üzrə 7 (hər birində), Quba-Xaçmaz iqtisadi rayonu üzrə 6 və Yuxarı Qarabağ iqtisadi rayonu üzrə isə 5 müəssisə ləğv edilmişdir.

2016-cı il yanvarın 1-i vəziyyətinə ölkədə mövcud olan kiçik müəssisələrin sayı və strukturu "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanunu və "İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsi meyarlarının hədləri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə müəyyənləşdirilmiş işçilərin sayı və illik dövriyyə meyarı əsasında götürülmüşdür.

Cədvəl 63

**Kiçik müəssisə və təşkilatların iqtisadi fəaliyyət növləri üzrə sayı**

| Fəaliyyət növləri | 01.01.2016-cı il vəziyyətinə kiçik müəssisə və təşkilatların sayı | Kiçik müəssisə və təşkilatların ümumi sayına görə, %-lə | Müəssisə və təşkilatların ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| **CƏMİ** | **79037** | **100,0** | **78,8** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 8686 | 11,0 | 90,8 |
| Mədənçıxarma sənayesi | 717 | 0,9 | 90,7 |
| Emal sənayesi | 5394 | 6,8 | 93,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 104 | 0,1 | 33,7 |

…ardı

| Fəaliyyət növləri | 01.01.2016-cı il vəziyyətinə kiçik müəssisə və təşkilatların sayı | Kiçik müəssisə və təşkilatların ümumi sayına görə, %-lə | Müəssisə və təşkilatların ümumi sayında kiçik müəssisələrin xüsusi çəkisi, %-lə |
|---|---|---|---|
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 263 | 0,3 | 55,5 |
| Tikinti | 9914 | 12,5 | 93,2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 24761 | 31,3 | 95,5 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1484 | 1,9 | 76,4 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1310 | 1,7 | 84,9 |
| İnformasiya və rabitə | 2065 | 2,6 | 84,1 |
| Maliyyə və sığorta fəaliyyəti | 910 | 1,2 | 57,2 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 993 | 1,3 | 82,6 |
| Peşə, elmi və texniki fəaliyyət | 5599 | 7,1 | 83,9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 3191 | 4,0 | 89,2 |
| Təhsil | 1491 | 1,9 | 44,3 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 856 | 1,1 | 51,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 973 | 1,2 | 61,9 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 10326 | 13,1 | 63,1 |

Göründüyü kimi, 2016-cı il yanvarın 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının 78,8 faizini kiçik müəssisələr təşkil etmiş və onların əsas hissəsi ticarət (31,3%), digər sahələrdə xidmətlərin göstərilməsi (13,1%), tikinti (12,5%) və kənd təsərrüfatı (11,0%) sahələrində yaradılmışdır.

Cədvəl 64

**Kiçik müəssisə və təşkilatların sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| | 01.01.2016-cı il vəziyyətinə kiçik müəssisə və təşkilatların sayı | Ümumi saya görə, %-lə |
|---|---|---|
| **CƏMİ** | **79037** | **100,0** |
| Bakı | 44442 | 56,2 |
| İqtisadi rayonlar: | | |
| Abşeron iqtisadi rayonu | 5548 | 7,0 |
| Gəncə-Qazax iqtisadi rayonu | 4833 | 6,1 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 3146 | 4,0 |
| Lənkəran iqtisadi rayonu | 4869 | 6,2 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2113 | 2,7 |
| Aran iqtisadi rayonu | 10372 | 13,1 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1359 | 1,7 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 246 | 0,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1268 | 1,6 |
| Naxçıvan iqtisadi rayonu | 841 | 1,1 |

Kiçik müəssisələrin 56,2 faizi Bakıda, 13,1 faizi Aran, 7,0 faizi Abşeron, 6,2 faizi Lənkəran, 6,1 faizi Gəncə-Qazaxda, qalanları isə digər iqtisadi rayonlarda yaradılmışdır.

# Fərdi sahibkarlar

2016-cı il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 577 minə yaxınlaşmışdır.

Cədvəl 65

**Fərdi sahibkarların sayının iqtisadi fəaliyyət növləri üzrə bölgüsü**

| Fəaliyyət növləri | 01.01.2016-cı il vəziyyətinə fərdi sahibkarların sayı | Ümumi saya görə, %-lə |
|---|---|---|
| **CƏMİ** | **576906** | **100,0** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 102942 | 17,8 |
| Mədənçıxarma sənayesi | 676 | 0,1 |
| Emal sənayesi | 15711 | 2,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 58 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 224 | 0,0 |
| Tikinti | 4989 | 0,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 201151 | 34,9 |
| Nəqliyyat və anbar təsərrüfatı | 72808 | 12,6 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 34432 | 6,0 |
| İnformasiya və rabitə | 6060 | 1,1 |
| Maliyyə və sığorta fəaliyyəti | 1462 | 0,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 10998 | 1,9 |
| Peşə, elmi və texniki fəaliyyət | 11210 | 1,9 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 2557 | 0,5 |
| Təhsil | 3762 | 0,7 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2446 | 0,4 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 7705 | 1,3 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 80413 | 13,9 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 17302 | 3,0 |

Hesabat dövründə hər beş fərdi sahibkardan dördü "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Digər sahələrdə xidmətlərin göstərilməsi" və "Nəqliyyat və anbar təsərrüfatı" sahələri üzrə qeydiyyatdan keçmişdir.

Cədvəl 66

**Fərdi sahibkarların sayının iqtisadi rayonlar üzrə bölgüsü**

| | 01.01.2016-cı il vəziyyətinə sahibkarların sayı | Ümumi saya görə, %-lə |
|---|---|---|
| **CƏMİ** | **576906** | **100,0** |
| Bakı | 194795 | 33,7 |
| İqtisadi rayonlar: | | |
| Abşeron iqtisadi rayonu | 28571 | 5,0 |
| Gəncə-Qazax iqtisadi rayonu | 74229 | 12,9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 36780 | 6,4 |
| Lənkəran iqtisadi rayonu | 42906 | 7,4 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 32283 | 5,6 |
| Aran iqtisadi rayonu | 114129 | 19,8 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 14185 | 2,5 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 2431 | 0,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 16489 | 2,8 |
| Naxçıvan iqtisadi rayonu | 20108 | 3,5 |

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (33,7%), Aran (19,8%), Gəncə-Qazax (12,9%) və Lənkəran (7,4%) iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

Cədvəl 67

**İqtisadi fəaliyyət növləri üzrə fərdi sahibkarların sayının gender bölgüsü**

| Fəaliyyət növləri | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | say | % | Say | % |
| **CƏMİ** | **463017** | **100,0** | **113889** | **100,0** |
| o cümlədən:<br>Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 79749 | 17,2 | 23193 | 20,4 |
| Mədənçıxarma sənayesi | 641 | 0,1 | 35 | 0,0 |
| Emal sənayesi | 13478 | 2,9 | 2233 | 2,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 54 | 0,0 | 4 | 0,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 203 | 0,0 | 21 | 0,0 |
| Tikinti | 4869 | 1,1 | 120 | 0,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 159825 | 34,5 | 41326 | 36,3 |
| Nəqliyyat və anbar təsərrüfatı | 71861 | 15,5 | 947 | 0,8 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 29542 | 6,4 | 4890 | 4,3 |
| İnformasiya və rabitə | 5023 | 1,1 | 1037 | 0,9 |
| Maliyyə və sığorta fəaliyyəti | 1112 | 0,2 | 350 | 0,3 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 7796 | 1,7 | 3202 | 2,8 |
| Peşə, elmi və texniki fəaliyyət | 7498 | 1,6 | 3712 | 3,3 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 1810 | 0,4 | 747 | 0,7 |
| Təhsil | 1348 | 0,3 | 2414 | 2,1 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1626 | 0,4 | 820 | 0,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 6803 | 1,5 | 902 | 0,8 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 57019 | 12,3 | 23394 | 20,5 |
| Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət | 12760 | 2,8 | 4542 | 4,0 |

Sahibkarlıqla məşğul olan fərdi sahibkarların 80,3 faizini kişilər, 19,7 faizini isə qadınlar təşkil etmişdir.

Qadınlar "Digər sahələrdə xidmətlərin göstərilməsi" fəaliyyət növündə mövcud sahibkarların ümumi sayının 29,1

faizini, “Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq”da 22,5 faizini, “Ticarət; nəqliyyat vasitələrinin təmiri” fəaliyyət sahəsində isə 20,6 faizini təşkil edir.

Cədvəl 68

**İqtisadi rayonlar üzrə fərdi sahibkarların sayının gender bölgüsü**

| | Kişilər | | Qadınlar | |
|---|---|---|---|---|
| | say | % | Say | % |
| **CƏMİ** | **463017** | **100,0** | **113889** | **100,0** |
| Bakı | 151154 | 32,6 | 43641 | 38,3 |
| İqtisadi rayonlar: | | | | |
| Abşeron iqtisadi rayonu | 22752 | 4,9 | 5819 | 5,1 |
| Gəncə-Qazax iqtisadi rayonu | 56820 | 12,3 | 17409 | 15,3 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 28982 | 6,3 | 7798 | 6,8 |
| Lənkəran iqtisadi rayonu | 36708 | 7,9 | 6198 | 5,4 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 25727 | 5,6 | 6556 | 5,8 |
| Aran iqtisadi rayonu | 95378 | 20,6 | 18751 | 16,5 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 12021 | 2,6 | 2164 | 1,9 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 1963 | 0,4 | 468 | 0,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 14445 | 3,1 | 2044 | 1,8 |
| Naxçıvan iqtisadi rayonu | 17067 | 3,7 | 3041 | 2,7 |

Sahibkar qadınların 38,3 faizi Bakıda, 16,5 faizi Aran, 15,3 faizi Gəncə-Qazax, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyatdan keçmişdir.

Fərdi sahibkarların cins tərkibinin regionlar üzrə say bölgüsündən aydın olur ki, Bakıda (22,4%), Gəncə-Qazax (23,5%) və Şəki-Zaqatala (21,2%) iqtisadi rayonlarında qadın sahibkarların payı ölkə üzrə orta göstəricidən yuxarıdır.

2016-cı il yanvarın 1-i vəziyyətinə Statistik Vahidlərin Dövlət Registrinə daxil edilmiş, torpaq payı almış ailələrin sayı 850 mini keçmişdir ki, bu da ölkədə torpaq payı alanların 98,0 faizini təşkil edir. Dövlət registrinə daxil edilmiş ailə təsərrüfatlarının iqtisadi rayonlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur.

Cədvəl 69

## Torpaq payı almış ailə təsərrüfatlarının sayının iqtisadi rayonlar üzrə bölgüsü

| | 01.01.2016-cı il vəziyyətinə ailə təsərrüfatlarının sayı | Ümumi saya görə %-lə |
|---|---|---|
| **CƏMİ** | **850798** | **100,0** |
| Bakı | 0 | 0,0 |
| İqtisadi rayonlar: | | |
| Abşeron iqtisadi rayonu | 7782 | 0,9 |
| Gəncə-Qazax iqtisadi rayonu | 170767 | 20,1 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 101150 | 11,9 |
| Lənkəran iqtisadi rayonu | 124957 | 14,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 80165 | 9,4 |
| Aran iqtisadi rayonu | 232195 | 27,3 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 19919 | 2,3 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 0 | 0,0 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 42915 | 5,1 |
| Naxçıvan iqtisadi rayonu | 70948 | 8,3 |

## Əhalinin gəlirləri

2015-ci ildə ölkə əhalisinin gəlirləri 2014-cü illə müqayisədə 5,7 faiz artaraq 41,7 milyard manata çatmışdır. Gəlirlərin əhalinin hər nəfərinə düşən həcmi isə orta hesabla 4380,1 manat və ya ayda 365,0 manat təşkil edərək 4,5 faiz artmışdır.

Bu dövr ərzində gəlirlərin 72,1 faizi son istehlak xərclərinə, 9,1 faizi vergilərin, sığorta və üzvlük haqlarının, 2,9 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 15,9 faizi isə yığıma yönəldilmişdir.

Əhalinin sərəncamda qalan gəlirləri 37,9 milyard manat təşkil edərək əvvəlki ilin eyni dövründəkindən 5,6 faiz çox olmuşdur.

Cədvəl 70

**Əhalinin gəlirlərinin əsas göstəriciləri**

| | 2015-ci il | 2014-cü ilə nisbətən nominal artım sürəti, faizlə *) |
|---|---|---|
| Əhalinin gəlirləri, mlyn. manat | 41738,6 | 105,7 |
| hər nəfərə, manat | 4380,1 | 104,5 |
| Sərəncamda qalan gəlirlər, mlyn. manat | 37948,3 | 105,6 |
| hər nəfərə, manat | 3982,3 | 104,3 |

*) 2014-cü il üzrə göstəricilər yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

## Əmək haqqı

2015-ci ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2014-cü ilin müvafiq dövrünə nisbətən 4,5 faiz artaraq 462,0 manat təşkil etmişdir. Əmək haqqı neft sektorunda 2105,5 manat, qeyri-neft sektorunda 422,1 manat təşkil etmişdir. Dövlət müəssisələrində çalışan işçilərin əmək haqları 357,3 manat, özəl müəssisələrdə çalışan işçilərin əmək haqları isə 608,2 manat olmuşdur.

Mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də tikinti sahələrində orta aylıq nominal əmək haqqı ölkə üzrə orta göstəricidən yüksək olmuşdur.

# Əhalinin əmanətləri və manatın məzənnəsi

Əhalinin banklardakı əmanətləri noyabr ayı ərzində 83,4 milyon manat azalaraq 2015-ci il dekabrın 1-i vəziyyətinə milli valyuta ekvivalentində 7,1 milyard manat təşkil etmişdir.

Cədvəl 71

**Əhalinin əmanətləri**

| | 2015-ci il dekabrın 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 7089,5 | 100,0 |
| o cümlədən: | | |
| - milli valyutada | 1669,0 | 37,2 |
| - xarici valyutada | 5420,5 | 208,1 |

Qrafik 38

**Əhalinin əmanətləri, mlyn. manat**




2015-ci ilin dekabr ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,23 manata (ilin əvvəlindən 1,03 manata), 1 Avroya-1,34 manata (1,14), 100 Rus rubluna-1,76 manata (1,70) bərabər olmuşdur.

# Demoqrafik vəziyyət

İlin əvvəlindən ölkə əhalisinin sayı 103,8 min nəfər və ya 1,1 faiz artaraq 2015-ci il dekabr ayının 1-i vəziyyətinə 9696,8 min nəfərə çatmışdır. Əhalinin bir kvadrat kilometrə düşən sayı 112 nəfərdir. Əhalinin 53,1 faizini şəhər, 46,9 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda hər 1000 kişiyə orta hesabla 1009 qadın düşür.

Cədvəl 72

## Əhalinin təbii hərəkətinin əsas göstəriciləri

| | Yanvar–noyabr | | | | | |
|---|---|---|---|---|---|---|
| | min | | | əhalinin hər 1000 nəfərinə[1] | | |
| | 2015 | 2014 | artım (+) azalma (-) | 2015 | 2014 | 2015-ci il 2014-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 102,4 | 105,3 | -2,9 | 11,7 | 12,1 | 96,7 |
| doğulanlar | 152,4 | 156,2 | -3,8 | 17,4 | 18,0 | 96,7 |
| ölənlər | 50,0 | 50,9 | -0,9 | 5,7 | 5,9 | 96,6 |
| Nikahlar | 63,1 | 78,5 | -15,4 | 7,2 | 9,1 | 79,1 |
| Boşanmalar | 11,7 | 11,0 | +0,7 | 1,3 | 1,3 | 100,0 |

[1] Əmsallar il üçün hesablanmışdır

2015-ci ilin yanvar-noyabr ayları ərzində ölkədə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 152,4 min doğulmuş körpə qeydə alınmış və bu göstərici əhalinin hər 1000 nəfərinə 17,4 təşkil etmişdir. Doğulan körpələrin 53,2 faizini oğlan, 46,8 faizini qız uşaqları təşkil edir. Doğulan körpələrdən 2774-ü əkiz, 78-i isə üçəmdir.

Qrafik 39




Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2015-ci ilin 11 ayı ərzində 50,0 min ölüm halı qeydə alınmışdır və 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9-dan 5,7-yə qədər azalmışdır.

Qeydiyyat şöbələri tərəfindən ölkədə 63,1 min nikah və 11,7 min boşanma halları qeydə alınmış, əhalinin hər 1000 nəfərinə nikahların sayı 7,2, boşanmaların sayı isə 1,3 təşkil etmişdir.

Cari ilin yanvar-noyabr ayları ərzində Dövlət Miqrasiya Xidmətinin və Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 2494 nəfər gələn və 1082 nəfər ölkədən gedən qeydə alınmışdır.

## Sosial təminat

Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması bu sahədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir.

2006-cı il yanvar ayının 1-dən tətbiq edilən sığorta-pensiya sistemi əmək pensiyalarının sığorta hissəsinin ildə bir dəfədən az olmamaqla istehlak qiymətləri indeksi nəzərə alınmaqla indeksləşdirilməsini nəzərdə tutur ki, bu da bazar iqtisadiyyatı mühitində vətəndaşların pensiya təminatı hüququnun etibarlı müdafiəsini təmin edir.

İlkin məlumatlara əsasən 2016-cı ilin əvvəlinə ölkədə pensiya-çıların sayı 1295,9 min nəfər olmaqla ölkə əhalisinin 13,5 faizini təşkil etmişdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 176,0 manata çataraq orta aylıq əmək haqqının 37,9 faizini təşkil etmişdir.

Cari ilin əvvəlinə 350,9 min nəfər sosial müavinət, 54,0 min nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və 105,0 min ailənin 458,9 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almışdır. 2015-ci il ərzində birdəfəlik müavinət alanların sayı isə 112,0 min nəfər olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" 2014-ci il 11 avqust tarixli 244 nömrəli Fərmanına əsasən 2015-ci il yanvar ayının 1-dən Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri (valideynləri, dul arvadı) üçün ayda 200 manat müəyyən olunmaqla Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir.

## Səhiyyə

Ölkədə səhiyyə sistemində həyata keçirilən mühüm islahatlar nəticəsində dövlət büdcəsində səhiyyənin inkişafına ayrılan vəsaitin məbləği ilbəil artır, ölkədə yeni müasir müalicə ocaqları inşa edilir və yenidən qurulur.

2015-ci ildə əvvəlki illə müqayisədə səhiyyə üçün ayrılan büdcə vəsaiti 16,9 faiz artaraq 777,7 milyon manat təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq, ölkədə aparıcı texnologiyalarla, müasir tibbi avadanlıqlarla təchiz olunmuş yeni tibb mərkəzlərinin yaradılması işi davam etdirilmişdir. Belə ki, 2015-ci il ərzində 4-ü Bakı şəhərində, 55-i isə regionlarda olmaqla 59 səhiyyə müəssisəsində təmir-tikinti işləri aparılmışdır.

Səhiyyənin prioritet sahələri olan ana və uşaqların sağlamlığı, şəkərli diabet, irsi qan xəstəlikləri, qan xidməti, xroniki böyrək çatışmazlığı, vərəm, yoluxucu xəstəliklərin immunoprofilaktikası üzrə həyata keçirilən tədbirlər nəticəsində xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi yüksəlmiş, bu xəstəliklər üzrə müayinələrin həcmi artırılmışdır.

Ana və uşaqların sağlamlığının qorunması sahəsində qəbul olunmuş dövlət proqramları uşaqlar arasında xəstələnmə, sağlamlıq imkanlarının məhdudluğunun və ölümün səviyyəsinin azaldılmasına, perinatal yardım islahatlarının davam etdirilməsinə, gənclərə göstərilən reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinin yaxşılaşdırılmasına yönəldilmişdir.

İlkin məlumatlara əsasən 2016-cı ilin əvvəlinə ölkədə 33,1 min həkim və 56,3 min orta tibb işçisinin çalışdığı 573 xəstəxana və 1753 ambulatoriya-poliklinika müəssisəsi fəaliyyət göstərir və əhalinin hər 10 min nəfərinə orta hesabla 35 həkim və 59 orta tibb işçisi düşür.

2015-ci ildə qeydə alınmış xəstəliklər arasında tənəffüs, əsəb sistemi və hissiyyat orqanlarının, həzm orqanlarının, qan dövranı sisteminin xəstəlikləri, eləcə də yoluxucu və parazitar xəstəliklər üstünlük təşkil etmişdir.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2015-ci ilin yanvar-noyabr aylarında 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə ölkədə epidemik parotit ilə (44,4 faiz), hepatit A virusu ilə (42,8 faiz), qoturluq ilə (35,0 faiz), quduzluq ilə (33,3 faiz), skarlatina ilə (31,7 faiz), qarayara ilə (20,0 faiz) xəstələnmə halları azalmışdır.

Kəskin poliomielit, tulyaremiya, məxmərək, anadangəlmə məxmərək sindromu, difteriya, yenidoğulmuşlarda tetanus, qızılca, göyöskürək və malyariya xəstəlikləri qeydə alınmamışdır.

Bununla yanaşı pedikulyoz, bakterial dizenteriya, sifilis, insanın immunçatışmazlığı virusu ilə xəstələnənlərin sayı bir qədər artmışdır.

# Ətraf mühit

Ətraf mühitin mühafizəsi sahəsində ölkədə su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosfer havasının mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınması, bərk sənaye və məişət tullantılarının, o cümlədən, təhlükəli tullantıların idarə olunmasının təkmilləşdirilməsi istiqamətində mühüm işlər aparılır.

2016-cı ilin əvvəlinə flora və faunanın qorunub saxlanması və təkrar istehsalı üçün ölkədə ümumi sahəsi 209,1 min hektar olan 11 dövlət təbiət qoruğu, sahəsi 322,3 min hektar olan 9 milli park və sahəsi 361,2 min hektar olan 24 dövlət təbiət yasaqlığımövcuddur. Xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,3 faizini təşkil edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin monitorinq xidmətləri tərəfindən 2015-ci ildə 1496 müəssisədə müvafiq müayinələr aparılmış və nəticədə su hövzələrin və atmosfer havasının çirkləndirilməsi üzrə tədqiq olunmuş hər üç müəssisədən birində, torpaq ehtiyatlarının çirkləndirilməsi üzrə isə muayinəyə cəlb olunmuş hər iki müəssisədən birində atılan tullantıların icazə verilən həddən artıq olması qeydə alınmışdır.

Təbiəti mühafizə qanunvericiliyinin pozulmasına görə 2015-ci ildə inzibati məsuliyyətə cəlb olunmuş 579 nəfər vəzifəli şəxs və vətəndaşdan 727,2 min manat məbləğində cərimə tutulmuşdur.

# Təhsil

Azərbaycan Respublikasında təhsil sistemi milli, mənəvi ümumbəşəri dəyərlərə əsaslanaraq və Boloniya prosesində yaxından iştirak etməklə ümumdünya təhsil sisteminə inteqrasiya yolu ilə inkişaf etməkdədir.

Aparılan uğurlu islahatlar nəticəsində əhalinin təhsil səviyyəsi ilbəil artır və bu gün 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 971-i ali, orta ixtisas və orta təhsilə malikdir.

İlkin məlumatlara əsasən, 2016-cı il yanvar ayının 1-i vəziyyətinə ölkədə fəaliyyət göstərən 1650 dövlət və 56 qeyri-dövlət məktəbəqədər təhsil müəssisəsində 116 min uşaq və ya 1-5 yaşlı uşaqların 14,2 faizi tərbiyə alır.

2015/2016-cı tədris ilinin əvvəlinə ölkənin 4439 dövlət və 23 qeyri-dövlət ümumi təhsil müəssisələrində 1,4 milyon şagird təhsil almışdır. Bundan əlavə, sağlamlıq imkanları məhdud olan 6,0 min uşağın təhsil aldığı 16 xüsusi məktəb və ya ümumi təhsil müəssisələrində təşkil edilmiş xüsusi siniflər fəaliyyət göstərmişdir.

Son illər ikinci və üçüncü növbələrdə təhsil alan şagirdlərin xüsusi çəkisinin azalması müşahidə olunur. Belə ki, 2014-cü ildə ümumi təhsil müəssisələrində bu göstərici 14,9 faiz olmuş, 2015-ci ildə isə 14,4 faizə düşmüşdür.

Qrafik 40

**2015/2016-cı tədris ilinin əvvəlinə əyani ümumi təhsil müəssisələri**



2015/2016-cı tədris ilinin əvvəlinə şagirdlərinin sayı 57,9 min nəfərdən artıq olan 99 dövlət liseyi və gimnaziyası fəaliyyət göstərmişdir.

Dövlət müəssisələrinin ümumi sayında məcburi köçkün uşaqlar üçün 602 əyani ümumi təhsil müəssisəsi fəaliyyət göstərir və burada 84,1 min nəfər şagird təhsil alır.

2015-ci ildə əyani ümumi təhsil müəssisələrini bitirən 87,81 min nəfər məzundan 87,46 min nəfəri və ya 99,6 faizi tam orta təhsil haqqında attestat almışdır.

Dövlət Statistika Komitəsi tərəfindən 2015-ci ilin sentyabr ayında dövlət əyani ümumi təhsil müəssisələrində keçirilmiş statistik müayinənin nəticələrinə görə, məktəblərin 93,9 faizi, o cümlədən şəhər yerlərində 99,1 faizi, kənd yerlərində isə 92,1 faizi kompyu-terlərlə təmin olunmuşdur.

Əvvəlki illə müqayisədə kompyuterlərin sayı 5,3 min ədəd və ya 9,2 faiz artaraq, 63,3 minə çatmışdır. 2006-cı ildə orta hesabla 101 şagirdə bir kompyuter düşdüyü halda hazırda hər 21 şagirdə bir kompyuter düşür.

Cari tədris ilinin əvvəlinə ümumtəhsil məktəblərinin 48,7 faizinin (şəhər yerləri üzrə 84,2, kənd yerləri üzrə isə 36,1 faizinin), kompyuterlə təchiz edilmiş məktəblərin isə 51,8 faizinin (şəhər yerləri üzrə 84,9, kənd yerləri üzrə isə 39,2 faizinin) internetə çıxışı vardır. Ümumtəhsil məktəblərinin 22,2 faizinin (şəhər yerləri üzrə 51,6, kənd yerləri üzrə isə 11,8 faizinin), internetə çıxışı olan məktəblərin isə 45,6 faizinin (şəhər yerləri üzrə 61,3, kənd yerləri üzrə isə 32,8 faizinin) eletktron poçt ünvanı mövcuddur.

Müayinə ilə əhatə olunmuş məktəblərin rəhbərlərinin məlumatlarına görə, cari tədris ilinin əvvəlinə bütün sinif otaqlarında istilik sistemi mövcuddur və onların 4,6 faizi mərkəzləşdirilmiş istilik sisteminə qoşulmuş, qalanları isə fərdi istilik sistemi ilə qızdırılır. Şəhər yerləri üzrə təhsil müəssisələrinin 82,9 faizi, kənd yerlərində isə 99,8 faizi fərdi istilik sisteminə malikdir. Fərdi istilik sisteminə malik təhsil müəssisələrinin qızdırılması üçün şəhər məktəblərinin 60,1 faizində qazdan, 11,7 faizində elektrikdən, 11,5 faizində maye

yanacaqdan və 10,9 faizində bərk yanacaqdan istifadə edilir. Bu məktəblərin 5,8 faizində isə fərdi kombi sistemi quraşdırılıb. Kənd məktəblərinin 48,0 faizi bərk yanacaqdan, 29,0 faizi maye yanacaqdan, 16,0 faizi qazdan və 4,1 faizi elektrikdən istifadə edilməklə qızdırılır. Kənd yerlərində fərdi kombi sisteminə malik məktəblərin sayı fərdi qaydada qızdırılan kənd məktəblərinin 2,9 faizini təşkil edir.

2015/2016-cı tədris ilinin əvvəlinə ölkədə fəaliyyət göstərən 61 orta ixtisas təhsil müəssisəsində 56427 tələbə təhsil almış, onların üçdə iki hissəsini qadınlar təşkil etmişdir.

Azərbaycanda bakalavr və magistrlərın hazırlanmasını həyata keçirən 41 dövlət və 13 qeyri-dövlət ali təhsil müəssisəsində təhsil alanların sayı 161234 nəfər olmuşdur ki, onların da 48,8 faizini qadınlar təşkil edir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa edilmiş 2015-ci il 6 oktyabr tarixli dəyişikliyə müvafiq olaraq 7 elmi təşkilatda magistraturaya tələbə qəbulu həyata keçirilmişdir.

Qrafik 41

**Dövlət və qeyri-dövlət ali və orta ixtisas təhsil müəssisələrində tələbə qəbulu və buraxılışı, min nəfər**




2015-ci ildə ölkənin ali təhsil müəssisələrinə 33,6 min nəfər tələbə qəbul olunmuş və qəbul geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilmişdir. Boloniya Deklarasiyasının tələblərinə tam cavab verən bu yeni siyahının təsdiq olunması Azərbaycan ali təhsil sisteminin Avropa təhsil

sisteminə inteqrasiyası yolunda atılan mühüm addımlardan biridir.

Bakalavriata qəbul olunan tələbələrin ümumi sayında ödənişli əsaslarla təhsilə qəbul olunanların xüsusi çəkisi 60,4 faiz olmuşdur ki, onların da 86,5 faizi dövlət ali təhsil müəssisələrinin payına düşür.

Hazırda dövlət ali təhsil müəssisələrinin əyani şöbələrində oxuyan tələbələrin 37,4 faizi təqaüd alır. Azərbaycan Respublikası Prezidentinin "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamına əsasən 2013-cü il sentyabrın 1-dən ali təhsil müəssisələrində adlı təqaüd alan tələbələrə 120 manat, magistr səviyyəsi üzrə əla qiymətlərlə oxuyan tələbələrə 105 manat, əla və yaxşı qiymətlərlə oxuyanlara 85 manat, yaxşı və kafi qiymətlərlə oxuyanlara 55 manat, bakalavr səviyyəsi üzrə isə müvafiq olaraq 95, 80, 50 manat müəyyən edilmişdir.

Ölkənin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə birgə 60 xarici ölkənin 3932 nəfər vətəndaşı da təhsil alır. Əcnəbi tələbələrin sırasında Türkiyə, İran, Rusiya, Gürcüstan, Türkmənistan, İraq və Çin Xalq Respublikası vətəndaşları üstünlük təşkil edirlər.

2015/2016-cı tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 2998 nəfər təşkil etmişdir. Xaricdə təhsil alan gənclərin 64,2 faizi Bakı, 35,8 faizi isə Azərbaycanın müxtəlif regionlarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Türkiyə, Birləşmiş Krallıq, Almaniya, Rusiya və Kanadanın ali təhsil müəssisələrində təhsil alır.

# Elm

Ölkədə elmin inkişafına dövlət tərəfindən xüsusi diqqət və dəstək göstərilir və Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli, 255 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycanda 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" uğurla həyata keçirilmişdir.

İlkin məlumatlara əsasən, 2016-cı ilin əvvəlinə ölkədə müxtəlif elmi-texniki xidmətləri həyata keçirən 145 elmi təşkilat və müəssisə fəaliyyət göstərmişdir. Bu elm ocaqlarında elmi-tədqiqat və işləmələrlə 23 mindən artıq mütəxəssis məşğul olur, onların da 70 faizi tədqiqatçılardır. Mütəxəssislərin hər üç nəfərindən birinin elmlər doktoru və ya fəlsəfə doktoru alimlik dərəcəsi vardır.

Bundan əlavə, elmi-tədqiqat bölmələrində ştatda olmayan və ali təhsil müəssisələrində çalışan 10 min nəfər elmi pedaqoji işçi elmi-tədqiqat bölmələrində tədqiqat və işləmələri yerinə yetirirlər. Onların da yarıdan çoxu elmlər doktoru və ya fəlsəfə doktoru alimlik dərəcəsinə malikdirlər.

Hazırda Milli Elmlər Akademiyasının 66 həqiqi və 114 müxbir üzvü vardır.

## Mədəniyyət

Azərbaycan digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı sahəsində də uğurlu addımlar atır və milli mədəniyyətin inkişafı dövlət siyasətinin prioritet məsələlərindən biri hesab edilir.

Son illər ölkədə mədəniyyət sahəsinin inkişafı ilə əlaqədar bir sıra əhəmiyyətli layihələr həyata keçirilmiş, milli mədəniyyətimizin dünyada tanıdılması, ölkəmizin dünyanın mədəniyyət məkanına uğurla inteqrasiya olunması, milli mədəni irsimizin, dəyər və sərvətlərimizin qorunub saxlanması, inkişaf etdirilməsi istiqamətində mühüm nəticələrə nail olunmuşdur.

Dövlət siyasətinin əsas istiqamətlərindən biri də mövcud mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni mədəniyyət obyektlərinin tikintisi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanmasından ibarətdir. 2015-ci il dekabr ayının 30-da Heydər Əliyev Fondunun dəstəyi ilə Bakinin Zirə qəsəbəsində Mədəniyyət Mərkəzinin və eko-parkın açılışı buna bariz nümunədir. Xüsusi layihə əsasında tikilmiş Mədəniyyət Mərkəzində Xalça Muzeyi, 3D kinozalı və elektron kitabxana fəaliyyət göstərir.

İlkin məlumatlara əsasən bu gün Azərbaycanda 33 milyon kitabxana fondu olan 3291 kütləvi kitabxana, 2729 klub müəssisəsi, 233 muzey, 28 peşəkar teatr və 347 mədəniyyət və istirahət parkı əhaliyə xidmət göstərir.

2015-ci ildə muzeylərə gələnlərin sayı 2,5 milyon nəfər, teatrlara gələnlərin sayı isə 0,7 milyon nəfər olmuşdur. Teatrlarda repertuar müntəzəm olaraq təzələnir və tamaşalar azərbaycan dili ilə yanaşı, rus və ləzgi dillərində də göstərilir.

Hazırda Azərbaycanda dövlət əhəmiyyətli tarix, mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruqlarının sayı 28-ə çatmışdır.

# İdman

2015-ci il Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Belə ki, müxtəlif beynəlxalq yarışlarda qazanılmış 823 medalın 321-i qızıl, 222-i gümüş, 280-i isə bürünc əyarlıdır. Olimpiya idman növləri üzrə qazanılan medalların sayı 297-dir.

2015-ci ilin iyununda Avropa tarixində ilk dəfə keçirilən Avropa oyunlarına 17 gün ərzində Azərbaycan ev sahibliyi etmişdir. Bu möhtəşəm yarış bir çox innovativ idman növünü özündə cəmləşdirmişdir. Yarışda 50 ölkəni təmsil edən 6 mindən çox idmançı mübarizə aparmışdır.

«Bakı 2015» Avropa Oyunları 18 idman obyektində keçirilmişdir. Onlardan 12-si daimi idman obyektləridir. Bakı Olimpiya Stadionu, BMX Veloparkı, Bakı Su İdmanı Sarayı, Avropa Oyunları Parkı və Bakı Atıcılıq Mərkəzi yeni inşa edilmişdir.

İyunun 12-dən 28-dək davam edən «Bakı 2015» Avropa Oyunlarında Azərbaycan milli komandası böyük uğurlara imza atmışdır. Belə ki, Azərbaycan idmançıları 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq ümumilikdə 2-ci yeri tutmuşdur.

Avropa oyunlarının Bakıda keçirilməsi ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində həyata keçirilən dövlət siyasətinin gücləndirilməsini təsdiq etməklə Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına, dünya idman aləmində önəmli yer tutmasına şərait yaratmışdır.

Müstəqillik dövründə ölkənin şəhər və rayonlarında 39 Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmişdir. Abşeron, Ağcabədi, Neftçala, Goranboy, Tərtər, Yevlax, Yardımlı rayonlarında Bakı şəhərinin Xəzər rayonunda İdman Komplekslərinin tikintisi və Lənkəran rayonunun Olimpiya İdman Kompleksinin yenidən qurulması işləri davam etdirilir.

İlkin məlumatlara görə 2016-cı ilin əvvəlinə ölkədə idman qurğularının sayı 10,8 minə çatmışdır. İdmanla məşğul olanların sayı isə müntəzəm olaraq artmaqdadır. Əhali arasında futbol, voleybol, şahmat, yüngül atletika, dama, basketbol, sərbəst güləş,

cüdo və stolüstü tennis kimi idman növlərinə daha çox maraq göstərilir.

Dünya üzrə ən nüfuzlu avtomobil idman yarışlarıdan hesab edilən "Formula-1" 2016-ci ildə mərhələlər üzrə 21 ölkədə keçiriləcəkdir. Yarışların 8-ci mərhələsi - Avropa Qran Prisi 17-19 iyun 2016-cı il tarixlərində Bakı şəhərində baş tutacaqdır. Bakıda keçiriləcək bu yarış şəhərin küçələrində təşkil ediləcəyindən onun gözəlliyini, əzəmətini, şəhər memarlığının tarixi incilərinin və müasirliyinin vəhdətini bütün dünyaya nümayiş etdirəcək, ölkə paytaxtının imicini daha da yüksəklərə qaldıracaqdır.

Bununla yanaşı, 2016-cı ildə Ümumdünya Şahmat Olimpiadası da Bakıda keçiriləcəkdir.

**Azərbaycan Respublikası**
**Dövlət Statistika Komitəsinin**
**sədri** **Tahir Budaqov**